

Milli azadlıqdan
şirin nemət yoxdur!


# AzərBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

10 sentyabr 2024-cü il, çərşənbə axşamı
№ 164 (6750)
Qiyməti 60 qəpik





# Siyasətdə uğur formulu: Hüquqi çərçivə, cəsarət və real güc

Bax səh. 2



## Astana sülh müqaviləsi üzrə danışıqların aparılması üçün platforma rolunu oynamağa hazırdır

**Sentyabrın 9-da Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

**Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, Qazaxıstan Prezidenti, ilk növbədə, ölkəmizdə parlament seçkilərinin uğurla keçirilməsi və Yeni Azərbaycan Partiyasının inamlı qələbəsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırıb.**

**Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirib.**

**Kasım-Jomart Tokayev Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşündə Azərbaycan Respublikası Prezidentinin iştirakını xüsusi qeyd edib.**

**Prezident İlham Əliyev Məşvərət görüşünə dəvətə görə minnətdarlığını bildirib.**

**Dövlətimizin başçısı hazırda Qazaxıstanda keçirilən V Dünya Köçəri Oyunlarının uğurlu təşkili münasibətilə təbriklərini çatdırıb. Qazaxıstan Prezidenti öz növbəsində Azərbaycan idmançılarının bu Oyunlarda fəal iştirak etdiklərini vurğulayıb.**

**Bu ay Qazaxıstanda Azərbaycan Mədəniyyəti Günlərinin keçirilməsi məsələsi də məmnunluqla qeyd olunub.**

**Tərəflər Azərbaycan və Qazaxıstan arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını vurğulayıblar.**

**Qazaxıstan Prezidenti Astananın Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqların aparılması üçün platforma rolunu oynamağa hazır olduğunu bildirib.**

**Dövlətimizin başçısı Azərbaycan üçün Astanada iki ölkə arasında bu danışıqların aparılması təklifinin məqbul olduğunu qeyd edib.**

**Telefon söhbəti zamanı ikitərəfli gündəliyə aid məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.**

## Çernobbioda Azərbaycan etirafı...

Bax səh. 4

## Qəlbi həmişə Azərbaycanla döyünənlər...

Sentyabrın 9-da paytaxtımızda əlamətdar bir tədbirin açılışı baş tutub. Söhbət Bakıda işinə başlayan Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumundan gedir. Forumda 23 ölkədən 80-dən çox azərbaycanlı alim, ümumilikdə, 200-ə yaxın elm xadimi iştirak edir. Diasporla İş üzrə Dövlət Komitəsinin, Elm və Təhsil Nazirliyinin dəstəyi, Dünya Azərbaycanlı...

Bax səh. 4



## Hərbçilərə növbəti güzəşt...

Bax səh. 2

## AŞPA-dan tələb olunur...

Müstəqil Azərbaycan özünün milli maraqlar üzərində qurulan xarici siyasətində beynəlxalq təşkilatlarda təmsilçiliyə böyük önəm verir. Bunun nəticəsidir ki, hazırda respublikamız həm geniş İslam dünyasında, həm də Avropa İttifaqı (Aİ) məkanında müxtəlif beynəlxalq təşkilatlarda uğurla təmsil olunur.

Bununla belə, ayrı-ayrı Avropa təsisatları bir sıra hallarda ikili standartlardan çıxış edərək öləmizə qarşı qərəzli...

Bax səh. 3

## 4-ü qızıl olmaqla 11 medal

Bax səh. 5

## Bakının vasitəçiliyi...

Cənubi Qafqazın lider dövləti olan Azərbaycan beynəlxalq müstəvidə siyasətini uğurla davam etdirir. Ümumiyyətlə, Azərbaycan hazırda regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir. Bütövlükdə, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin qanunauyğun nəticəsi kimi, Azərbaycan dünyada böyük etimad qazanan ölkə - etibarlı tərəfdaş və nüfuzlu dövlət kimi tanınır. Dövlət başçısının qeyd etdiyi kimi, apardığımız siyasət bizə dünyada çox böyük hörmət qazandırıb, Azərbaycana çox böyük rəğbət var.

Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini təmin etməsi isə ölkəmizin beynəlxalq müstəvidə mövqelərini daha da gücləndirib. Çünki bu hadisə ilə Cənubi Qafqazda yeni reallıqlar yaranıb. Beynəlxalq müstəvidə nüfuzunu daha da yüksəldən Azərbaycanın regionumuzla yanaşı, bir sıra bölgələrdə də problemlərin həllində, Avropanın enerji təhlükəsizliyində də rolu artmaqdadır. Xüsusilə, Rusiya-Ukrayna müharibəsi başlayandan sonra Avropanın Azərbaycana ehtiyacı artıb və ölkəmiz etibarlı tərəfdaş kimi qitənin enerji təhlükəsizliyinin təmin olunmasında vacib addımlar atmaqdadır. Yeri gəlmişkən, Rusiya-Ukrayna müharibəsi bu gün iki ölkənin qarşıdurması...

Bax səh. 5

## COP 29 yaxınlaşdıqca...

Yaşadığımız bölgədə yeni siyasi reallıqlar formalaşdıran Azərbaycan regionun həyatında yeni səhifə açıb. Son 100 illlik tarixdə bəlkə də ilk dəfədir ki, Cənubi Qafqaz müstəqil siyasi subyekt olaraq qlobal münasibətlər sitemində öz yerini tuta, bu proseslərə əsaslı təsir göstərə və beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsində real aktor kimi iştirak edə bilər. Bunun əsas meyarı isə birmənalı olaraq II Qarabağ müharibəsi, antiterror tədbirəli və onların nəticələridir. Azərbaycan bölgədə separatizmin və işğalın sonunu gətirməklə fərqli maraqların bu kimi destruktiv amillərdən istifadə edərək regiona nüfuzetmə mexanizmlərini darmadağın etdi. Artıq Cənubi Qafqaz siyasi maraqların oyun meydanı və ya iqtisadi mənafelərin qarşıdurma poliqonu deyil, yeni ticari münasibətlərin nüvəsi kimi çıxış edir.

Beləliklə, yeni beynəlxalq münasibətlər sisteminə fərqli bir şəkildə yenidən daxil olan Cənubi Qafqaz bir sıra qlobal güclərin buraya fokuslanmış və təzyiqə əsaslanan müdaxilələrini fərqli statusla qarşılayır. Bu isə həmin güclər və ya dövlətlər tərəfindən həzm edilmir - xüsusilə, işğalçı Ermənistanın yaratdığı imkanlardan yararlanaraq özünü bölgədə hakim sayan Fransa və onun kimiləri artıq "oyundankənar vəziyyətdə" olduqlarını anlayırlar. Bunun üçün də həmin dairələr aqressiyalarını atırır, bütün spektrlər üzrə "hücumlarını" daha da intensivləşdirirlər.

Vurğulandığı kimi, bu sırada Avropa İttifaqının adı ilk növbədə çəkilir. Ölkəmizə qarşı apardığı kampaniyaları uğursuzluqlarla müşayiət edən Aİ yenidən bir sıra "addımları" ilə "yadda qalmağa" çalışır. Amma bütün bunlar boşunadır və Azərbaycan tərəfindən layiqincə qarşılığını alır.

Yeri gəlmişkən, bir neçə gün öncə Azərbaycan Xarici İşlər Nazirliyinin...

Bax səh. 6

## Aşağı riskli, maksimum gəlirli...

Azərbaycan Dövlət Neft Fondunun (DNF) icraçı direktoru İsrafil Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Çində işgüzar səfərdədir. Məlumata görə, səfər çərçivəsində Çin İnvestisiya Korporasiyasının sədri Penq Çun ilə baş tutan görüşdə tərəflər arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsi imkanları müzakirə olunub və birgə fəaliyyətin bundan sonra da davam etdirilməsinə dair qarşılıqlı maraq ifadə edilib.

Çinin ən nəhəng suveren fondlarından biri ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi Fondun qlobal bazarlarda baş verən proseslərə, o cümlədən İT və startuplar üzrə dünyada öz mövqeyini artıran Çin şirkətlərinin səhmlərinə adekvat münasibətin təzahürü kimi dəyərləndirilə bilər. Hazırda Çinin müxtəlif lider şirkətlərinin qlobal iqtisadiyatda payı durmadan artır, investorların yeni yatırımları müsbət dalğa yaradır və qlobal səhmlərdə Çin investorlarının rolu yüksəlir. Hazırda Çin birjalarındakı səhmlərin ümumi dəyəri 20 trilyon dollara yaxınlaşır. Çin səhm bazarı dünyada yalnız 38 trilyon dollarlıq ABŞ səhm bazarından geri qalır. Bütün bu amillər DNF-nin də Çinin investisiya və səhmlərinə marağını artırır, Çin İnvestisiya Korporasiyası ilə əməkdaşlıq isə yeni imkanlar yaradır.

Ümumiyyətlə, Dövlət Neft Fondu davamlı olaraq investisiya siyasətini təkmilləşdirir, risklərin aşağı olması şərtilə maksimum gəlirliliyin əldə edilməsinə imkan verən investisiya siyasəti həyata keçirir. Fondun investisiya portfelinin proqnozlaşdırılan məcmu dəyəri hazırda 52,6 milyard dollara bərabərdir ki, valyuta tərkibində baza valyutası və ya 65 faizi ABŞ dollarıdır. Aktivlərin 20 faizi avroda, 5 faizi İngiltərə funt-sterlinqində, qalan 10 faizi...

Bax səh. 3

## Simonyan istisna etməsə də...

Təxminən iki ildir ki, Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) fəaliyyətini dayandırıb. Hələ ötən ilin yayında Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının baş katibinin müavini kvotasından imtina edib. Rəsmi İrəvan, həmçinin KTMT-nin ölkədə keçirilməsi nəzərdə tutulan hərbi təlimlərini də təxirə salmışdı. Hansı ki, Rusiya Müdafiə Nazirliyi 2023-cü ilin əvvəlində KTMT-nin "Sarsılmaz qardaşlıq - 2023" sülhməramlı təlimlərinin Ermənistanda keçiriləcəyini bəyan etmişdi. Amma baş nazir Nikol Paşinyan İrəvanın bu təlimlərin keçirilməsini məqsədəuyğun hesab etmədiyini bildirmişdi. N.Paşinyan hətta nümayişkəranə şəkildə ötən il noyabrın 23-də Minsk şəhərində keçirilən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının sammitinə də qatılmadı. Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan isə bu il iyunun 21-də KTMT Xarici İşlər Nazirləri Şurasının Almatıda keçirilən iclasında iştirak etməyib.

Rəsmi İrəvanın iddiası ondan ibarətdir ki, KTMT Ermənistanın təhlükəsizliyinin təminatında rol oynamır. Ona görə də, təhlükəsizliklə bağlı yeni tərəfdaş axtarışındadırlar. Rəsmi İrəvanın "incikliyi" 2022-ci ilin sentyabrında şərti sərhəddə baş verən hərbi toqquşma zamanı KTMT-nin onu müdafiə etməməsi ilə bağlıdır. Halbuki, şərti sərhəddə Azərbaycana qarşı hərbi təxribat törədən məhz erməni hərbi birləşmələri idi. Belə olan halda, KTMT nə üçün təxribatçını müdafiə etməlidir? Görünən odur ki, Paşinyan hakimiyyəti bu hadisədən təşkilatla körpüləri yandırmaq üçün bir bəhanə kimi istifadə edib.

Bundan əlavə, Ermənistan KTMT-yə üzvlük haqqı ödəməyi də dayandırıb. Paşinyan həm, iyunun 12-də parlamentin...

Bax səh. 7



## Şillə, yumurta, indi də fitəbasma...

Bax səh. 7



## Sülhə atılan güllə...

Bax səh. 6



## 90 dəqiqə tamaşaçısız...

Bax səh. 7

# Siyasətdə uğur formulu: Hüquqi çərçivə, cəsarət və real güc

## Azərbaycan Prezidentinin Beynəlxalq Çernobbio Forumundan verdiyi siyasi mesajlar

Səmərəli və kifayət qədər fəal diplomatiya kursuna malik olan Azərvbaycanın qlobal təhlükəsizliyə və əməkdaşlığa verdiyi davamlı töhfələr beynəlxalq səviyyədə yüksək dəyərləndirilir. Etiraf olunur ki, respublikamız həm özünün real gücü, həm də apardığı məqsədyönlü siyasəti sayəsində artıq regional səviyyədən çıxaraq qlobal aktora çevrilib. Təsadüfi deyildir ki, bu günlərdə "Dünya, Avropa və İtaliya haqqında bilgilər" mövzusuna həsr olunmuş Beynəlxalq Çernobbio Forumunda "Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu" adlı sessiya da təşkil olunub.

Sessiyada Prezident İlham Əliyevin çıxışı və Ona ünvanlanan suallara verdiyi cavablar böyük maraqla qarşılanıb. Tədbirdə dövlətimizin başçısı Azərbaycan - İtaliya münasibətlərinin yüksək səviyyədə olduğuna, geosiyasi vəziyyətə, qlobal səviyyədə körpülərin qurulmasında ölkəmizin artan roluna diqqət çəkib. Son olaraq ölkəmiz COP29 konfransına ev sahibliyini öz üzərinə götürməklə hazırda çox aktual olan qlobal çağırışa həssas yanaşmasını nümayiş etdirib. "Biz qlobal arenada müxtəlif aktorlar arasında körpülərin qurulması üzərində fəal çalışırıq. Hər kəsə məlumdur ki, iqlim mövzusu ölkələri və xalqları ayıran bir mövzudur. Qarşılıqlı iddialar və ittihamlar var - kim planetimizə xələl gətirməkdə daha çox günahkardır, kim daha çox ödəməlidir və sair. Yəni beynəlxalq arenada qlobal aktor olmasaq belə, zənnimcə qlobal Cənub və qlobal Şimal arasında körpülərin qurulması mümkündür. Bununla yanaşı, onu da vurğulamaq istərdim ki, bir çox Avropa ölkəsi ilə fəal əməkdaşlığa malik olmağımız, - yeri gəlmişkən, Avropa İttifaqının 10 üzvü rəsmi olaraq Azərbaycanın strateji tərəfdaşıdır, - 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatına 4 il sədrliyimiz onu nümayiş etdirir ki, biz yaxşı nəticə hasil edə biləcək ölkəyik", - deyə Prezident İlham Əliyev Forumdakı çıxışında vurğulayıb.

### Azərbaycanla İtaliya arasında yüksək səviyyəli siyasi təmaslar

Azərbaycanın Cənubi Qafqazda lider dövlət olduğunu, İtaliyanın Avropada böyük nüfuz qazandığını, iqtisadiyyatının həcminə görə dünyada yeddinci yeri tutduğunu nəzərə aldıqda deyə bilərik ki, iki ölkə arasındakı əlaqələr regional və qlobal münasibətlər kontekstində böyük önəm daşıyır. İtaliya Respublikası Azərbaycan Respublikasının müstəqilliyini 1 yanvar 1992-ci ildə tanıyıb, 8 may 1992-ci ildə iki ölkə arasında diplomatik əlaqələr qurulub. 1997-ci ilin mart ayında İtaliyanın Azərbaycanda, 2003-cü ilin dekabr ayında isə Azərbaycanın İtaliyada səfirliyi təsis edilib. Prezident İlham Əliyev Beynəlxalq Çernobbio Forumundakı çıxışında diqqəti Azərbaycanla İtaliya arasındakı strateji tərəfdaşlıq münasibətlərinə çəkib. İki ölkə arasında on il bundan əvvəl strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalanıb. Hər iki tərəf qarşılıqlı münasibətlərin yol xəritəsi sayılan bu sənəddə əksini tapan müddəaların həyata keçirilməsinə güclü siyasi iradə nümayiş etdirir.

Siyasi tərəfdaşlıq münasibətlərinin möhkəmlənməsində liderlərin və digər yüksək səviyyəli rəsmilərin müntəzəm hal alan qarşılıqlı səfərləri mühüm rol oynayır. Liderlər arasında siyasi təmasların əsası Azərbaycanın sabiq Prezidenti Heydər Əliyevin 1997-ci ilin sentyabrında İtaliyaya ilk rəsmi səfəri ilə qoyulub. Həmin səfər iki dövlət arasında bütün sahələrdə münasibətlərin inkişaf etdirilməsi üçün əhəmiyyətli addım olub. Səfər zamanı Heydər Əliyev İtaliya Prezidenti, Baş nazir, Senatın və Deputatlar Palatasının sədrləri ilə görüşüb. İtaliya rəhbərləri Heydər Əliyevlə söhbət zamanı Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə ədalətli həllinə və Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasına tərəfdar olduqlarını bildiriblər. Heydər Əliyevin İtaliyaya səfəri nəticəsində iki dövlət arasında siyasi, iqtisadi, mədəni və texniki əməkdaşlıq üzrə yeddi saziş imzalanıb. Bu səfərdən sonra Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci ilin fevralında İtaliyaya dövlət səfəri reallaşdı. Böyük uğurla baş tutan dövlət səfəri çərçivəsində iki ölkə arasında siyasi, iqtisadi, enerji, mədəniyyət, turizm, kənd təsərrüfatı, hərbi, nəqliyyat, təhsil, idman, kosmos, investisiya və ixracın təşviqi və digər sahələri əhatə edən 28 sənəd imzalanıb. Romada, həmçinin Azərbaycanın dövlət başçısı və İtaliya Nazirlər Şurasının Sədri "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə"ni imzalayıblar və mübadilə ediblər. Dövlətimizin başçısının 2022-ci ilin sentyabrında İtaliyaya baş tutan işgüzar səfərinin gündəliyi də kifayət qədər geniş olub. Səfər çərçivəsində Prezidentlər İlham Əliyev və Sercio Mattarella və digər yüksəksəviyyəli rəsmilər arasında aktual müzakirələr aparılıb. O cümlədən dövlətimizin başçısının iştirakı ilə Romada Azərbaycan Respublikasının səfirliyinin yeni binası açılıb, İtaliya-Azərbaycan Universiteti üzrə əməkdaşlıq çərçivəsi müəyyən edilib, fakültə və proqramların yaradılması ilə bağlı ADA Universiteti ilə İtaliyanın beş aparıcı ali təhsil müəssisəsi arasında akademik əməkdaşlığa dair imzalanmış sazişlərin mübadiləsi mərasimi keçirilib. Eyni zamanda, dövlətimizin başçısı Çernobbio şəhərində keçirilən beynəlxalq forumda iştirak və çıxış edib.

Prezident İlham Əliyevin bu günlərdə dost İtaliyaya baş tutan sonuncu işgüzar səfəri də kifayət qədər uğurlu olub. Səfər çərçivəsində həm Prezident İlham Əliyevin, həm İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə birgə qatıldığı işçi naharda, həm də dövlətimizin başçısının İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə görüşündə rəsmilər ölkələrinin siyasətlərinin prioritetləri barədə bir-birlərini məlumatlandırıblar. Yüksək səviyyədə aparılan müzakirələrdə tərəflər əlaqələrin hazırkı səviyyəsindən məmnunluqlarını bildiriblər, həmçinin münasibətlərin daha da dərinləşdirilməsində maraqlı olduqlarını bir daha nəzərə çatdırıblar. Dövlətimizin başçısı Prezidet Sercio Mattarellanı və Nazirlər Şurasının sədri Ciorcia Melonini ölkəmizə səfərə dəvət edib və bu dəvətlər məmnuniyyətlə qəbul olunub. "Uzun illər ərzində Azərbaycan və İtaliya strateji tərəfdaşlar kimi fəaliyyət göstərirlər. Müvafiq bəyannamə təqribən 10 il əvvəl qəbul edilib. Bizim əməkdaşlığımız bir çox sahəni əhatə edir. Bizim müntəzəm siyasi təmaslarımız var. Bu, 2020-ci ildən bəri mənim İtaliyaya 3-cü səfərimdir. Prezident Mattarella 2018-ci ildə Azərbaycana səfər etmişdir. Yüksək səviyyəli siyasi təmaslarımız bizim yaxın siyasi tərəfdaş olduğumuzu nümayiş etdirir", - deyə Prezident İlham Əliyev Beynəlxalq Forumdakı çıxışında vurğulayıb.





### Qafqazda və daha geniş coğrafiyada baş vermiş ən mühüm geosiyasi dəyişiklik

Beynəlxalq Çernobbio Forumunda "Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu" adlı sessiyanın təşkil olunması heç də təsadüfi deyil. Prezident İlham Əliyevin bildirdiyi kimi, təkcə Qafqazda deyil, daha geniş regionda baş vermiş ən böyük geosiyasi dəyişiklik Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası oldu. "Bu, həqiqətən onu nümayiş etdirdi ki, beynəlxalq hüququn aliliyi o zaman təmin edilə bilər ki, burada hüquqi çərçivə ilə yanaşı, həmçinin cəsarət və real güc də var", - deyə dövlətimizin başçısı vurğulayıb.

Azərbaycan uzun müddət işğaldan əziyyət çəkib. Belə ki, bizim beynəlxalq səviyyədə tanınmış ərazilərimiz 30 il ərzində Ermənistanın işğalı altında qalıb. Torpaq itkisinə və bir milyondan çox vətəndaşının doğma yurd yerlərindən zorla çıxarılması səbəbindən humanitar böhran yaşamasına baxmayaraq, Azərbaycan həmişə sülh mövqeyindən çıxış edib və aparılan danışıqlarda daim konstruktivlik göstərib. Lakin qarşı tərəf ölkəmizin sülh çağırışlarına məhəl qoymayıb. Forum iştirakçılarına məlumat verildiyi kimi, beynəlxalq təşkilatların çoxsaylı qərar və qətnamələrinə, o cümlədən Ermənistan qoşunlarının bizim torpaqlarımızdan dərhal çıxarılmasını tələb edən və hüquqi öhdəlik yaradan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə baxmayaraq, işğal davam etmişdir. ATƏT bu məsələ ilə məşğul olacaq xüsusi bir qrup da yaratmışdır və həmin qrup 28 il ərzində sıfır nəticə hasil etmişdir. Bu, onu nümayiş etdirir ki, ədaləti və sülhü təmin etmək üçün təkcə beynəlxalq hüquq kifayət deyil. Masa üzərində digər amillər də olmalıdır.

Haqlı mövqedə olan Azərbaycan məhz həm beynəlxalq hüquqa, həm də öz gücünə əsaslanmaqla 2020-ci ildə baş verən 44 günlük müharibədə qazanılan Qələbə sayəsində işğal altında olan ərazilərinin böyük hissəsini geri qaytarıb. Bununla respublikamız tarixi ədaləti və beynəlxalq hüququ sırf öz gücünə təmin etdi. Lakin məsələ bununlada bitmədi. Çünki üçtərəfli Bəyanatın icrasından yayınan Ermənistan Azərbaycan ərazisində 15 minədək kontingentə malik silahlı qüvvələr saxlamaqda davam edirdi. Həmin silahlı qüvvələr də davamlı olaraq təxribatlar törədirdilər. Azərbaycan buna dözə bilməzdi və dözmədi də. Prezident İlham Əliyevin vurğuladığı kimi, bu məsələdə sonuncu nöqtə ötən ilin sentyabrında qoyuldu və Azərbaycanın suverenliyi tam şəkildə bərpa edildi. Münaqişəyə nəhayət, son qoyuldu və bu, məhz belə də olmalı idi. "Bu, bu gün ərazi bütövlüyünü və suverenliyini bərpa etmək istiqamətində uğura nail olmaqda çətinlik çəkən bir çox ölkə üçün yaxşı nümunədir. Azərbaycan öz nümunəsi ilə onu nümayiş etdirdi ki, beynəlxalq hüquq, güclü siyasi iradə, cəmiyyətin səfərbər olması və fiziki güc ciddi siyasi dəyişikliklə nəticələnə bilər. Beləliklə, Sovet İttifaqının süqutundan sonra ilk dəfədir ki, biz Cənubi Qafqazda sülhə nail ola bilərik. Bu, mümkündür - Azərbaycan və Ermənistan arasında sülh danışıqları çərçivəsində baş verən hadisələr, sülh müqaviləsinin bəndlərinin təqribən 80 faizinin razılaşdırılması, sərhədin delimitasiyası prosesinin başlanması və hətta kiçik addım hesab oluna bilən 13 kilometrlik hissəsinin demarkasiyasının, - halbuki sərhədin uzunluğu 1000 kilometrdən artıqdır, - özü belə düzgün istiqamətdə atılan addımdır", - deyə Prezident İlham Əliyev vurğulayıb.

Forumda Prezident İlham Əliyev ölkəmizin təşəbbüsü ilə başlayan sülh danışıqlarının sülh sazişinin imzalanması ilə nəticələnəcəyinə ümid bəslədiyini də diqqətə çatdırıb. Belə bir nəticə isə təkcə Cənubi Qafqaz deyil, dünyanın bütün regionları üçün əhəmiyyətli olacaq. Bu xüsusda fikirlərini ifadə edən Prezident İlham Əliyev deyib: "Bu, 30 il ərzində münaqişədə olmuş iki ölkənin birgə çalışaraq sülhə nail olmasının nümunəsi ola bilər. Baxmayaraq ki, burada işğaldan əziyyət çəkmiş və ərazisinin təqribən 20 faizinin tamamilə dağıdıldığı ölkə məhz Azərbaycandır".

*Mübariz ABDULLAYEV*

# Hərbçilərə növbəti güzəşt...

## Hökumət onların mənzil təminatını daha da yaxşılaşdıracaq

Azərbaycanda hərbçilərə dövlətin növbəti əhatəli dəstək tədbirlərindən birinə start verilir. Yeni güzəştlər hərbçilərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində yürüdülən siyasətin tərkib hissəsi kimi nəzərdə tutulub.

Prezident İlham Əliyevim imzaladığı müvafiq fərmana əsasən, "Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələrində təhsil almış hərbi qulluqçulara verilən güzəştli ipoteka kreditlərinə dövlət tərəfindən maliyyə dəstəyi göstərilməsi Qaydası" təsdiq edilib. Yeni qaydalar xüsusi təyinatlı təhsil müəssisələrində təhsil almış hərbi qulluqçulara İpoteka və Kredit Zəmanət Fondu tərəfindən verilən güzəştli ipoteka kreditlərinə dövlət dəstəyini əhatə edir. Belə ki, fərmanın müddəalarına əsasən, ipoteka krediti ilə ev alan xüsusi təyinatlıların aylıq kredit ödənişinin yarısını dövlət ödəyəcək. Bundan başqa, xüsusi təyinatlılar ipoteka krediti götürərkən ilkin ödənişi də dövlət edəcək, gələcəkdə isə xüsusi təyinatlılara krediti bağlamaq üçün daha bir dəfə maddi dəstək veriləcək.



### 5 il xidmət keçən zabit və gizirlərə də güzəştli ipoteka veriləcək

Həmçinin dövlət başçısının 2018-ci il 1 may tarixli fərmanı ilə təsdiq olunmuş "Elektron ipoteka və kredit zəmanət" sistemi haqqında Əsasnamə"yə edilmiş dəyişikliklərə əsasən, Müdafiə Nazirliyi hərbi qulluqçulara verilən güzəştli ipoteka kreditlərinə dövlət tərəfindən maliyyə dəstəyi göstərilməsi imkanlarının daha da yaxşılaşdırılması nəzərdə tutulub.

Qaydalara əsasən, Milli Müdafiə Universitetinin tabeliyindəki Heydər Əliyev adına Hərbi İnstitutun bakalavriat səviyyəsində, o cümlədən bakalavriat səviyyəsinin hazırlıq kursunda, Bakı Hərbi Kollecində, Gəncə Hərbi Kollecində və Naxçıvan Hərbi Kollecində təhsil almış hərbi quluqçulara verilən güzəştli ipoteka kreditlərinə dövlət tərəfindən maliyyə dəstəyi göstəriləcək. Onların mənzil təminatının həlli üçün İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditləşməsi həyata keçiriləcək.

Dövlətin ipoteka güzəştlərindən 2024-2025-ci tədris ilindən başlayaraq dövlətlərarası müqavilə əsasında xarici ölkələrin xüsusi təyinatlı təhsil müəssisələrində təhsil alan və məzun olduqdan sonra Azərbaycan Ordusunda 5 təqvim ili zabit və ya gizir kimi həqiqi hərbi xidmət keçən Azərbaycan hərbi qulluqçuları da istifadə edə biləcəklər. Xarici ölkələrin xüsusi təyinatlı təhsil müəssisələrində təhsil alan və məzun olduqdan sonra Azərbaycan Ordusunda 5 təqvim ili zabit və ya gizir (miçman) kimi həqiqi hərbi xidmət keçən ölkə vətəndaşları olan bütün hərbi qulluqçulara bu güzəştlər şamil olunacaq. Nəticədə güzəştli ipoteka ilə əhatə olunan hərbçilərin sayı daha da artmış olacaq.

Maliyyə dəstəyi güzəştli ipoteka kreditinin verildiyi tarixə ipoteka ilə yüklü edilən yaşayış sahəsinin qiymətinin bir hissəsi və aylıq annuitet ödənişlərinin bir hissəsi üzrə yalnız bir yaşayış sahəsinin satın alınması məqsədilə müddəti azı 15 il olan güzəştli ipoteka kreditləri üzrə göstəriləcək. Yəni hərbçilər güzəştli ipoteka imkanından yalnız bir dəfə istifadə edə biləcəklər və bunun üçün kreditin müddəti 15 ildən artıq olmalıdır.

Dövlət ilkin ödənişi də tamamilə öz resursları hesabına qarşılayacaq. Belə ki, hərbçilərə ipoteka krediti götürəndə ilkin ödəniş dövlət tərəfindən ödənilməklə, həmin məbləğ alınan evin qiymətinin 15 faizi qədər olmalıdır. Yəni 100 min manat məbləğində alınan evin ilkin ödəniş limiti 15 min manatı keçməməlidir. Burada bir məqam var ki, bu da ipoteka siyasətində sonradan maliyyələşmə mexanizmi ilə tənzimlənəcək. Belə ki, hərbçi ev və ya mənzil alarkən ödədiyi ilkin ödənişi, tutalım ki, 15 min manatı özü birbaşa borc sahibinin hesabına köçürübsə, həmin vəsaiti sonradan dövlətdən geri ala biləcək. Çünki, həmin ödənişə dövlət özü zəmanət verir.



### Bütün hərbçilər üçüç əlçatan və şəffaf...

Bundan başqa, hərbçilərin aylıq kreditlərinə də böyük güzəştlər nəzərdə tutulub. Onların aylıq kredit üzrə ödənişlərinin 50 faizini dövlət ödəyəcək. Belə ki, annuitet ödənişləri, yəni borcun aylıq bərabər hissəsi aylıq, məsələn 500 manat olduğu halda onun 250 manatını dövlət zəmanət verəcək, verilən maliyyə dəstəyinin digər annuitet hissəsinin 50 faizi hərbçinin öhdəliyində qalacaq. Güzəştli ipoteka krediti üzrə əsas borc məbləğinin bir hissəsi kredit müqaviləsində nəzərdə tutulmuş müddətdən əvvəl qaytarılarsa və yaxud borc restrukturizasiya edilərsə, annuitet ödənişləri üzrə maliyyə dəstəyi yenidən hesablanmış annuitet ödənişinin nəzərdə tutulmuş həcmində müəyyən ediləcək. Yəni hərbçi ümumi məbləğin üzərinə düşən hissəsini daha tez ödəyərsə, ona aylıq hesablanmış ödəniş məbləğinin dövlət tərəfindən verilmiş annuitet hissəsini yenə də dövlət tam şəkildə ödəyəcək. Hərbçi sadəcə, bu prosesdə ümumi kredit öhdəliyində ona aid olan ödəniş müddətini azaltmış olacaq.

İpotekanın əlçatanlığının təmin edilməsi və prosesin tam şəffaf həyata keçirilməsi üçün bütün resurslara rəqəmsal nəzarət olunacaq, İpoteka və Kredit Zəmanət Fondu və və müvəkkil bank ipoteka krediti verən banklar) arasında informasiya mübadiləsi Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiya olunacaq və hər kəs "Elektron ipoteka və kredit zəmanət" sistemi vasitəsilə bu prosesi izləyə biləcək. Müdafiə Nazirliyi bu sistemə qoşulmaqla faktiki olaraq hərbçilərin ipoteka reyestrini müəyyən edə biləcək.

Hərbçilərə dövlət qayğısı davamlı və genişdir, müxtəlif proqramları əhatə edir. Son bir ildə müxtəlif qanunlara edilmiş dəyişliklər sayəsində hərbçilərin pensiyası artırılıb, sosial təminatı yaxşılaşdırılıb. 2024-cü ildə "Əmək pensiyaları haqqında qanun"a edilmiş dəyişikliklərdən sonra müharibə ilə əlaqədar əlilliyi olan hərbi qulluqçuların pensiyası 10 faiz artırılıb.

### İndiyədək 3646 nəfər hərbi qulluqçu mənzillə təmin olunub

Dövlət başçısının "Azərbaycan Ordusunun hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" müvafiq fərmanına əsasən, davamlı olaraq Azərbaycan Ordusunda 20 təqvim ili və daha çox qüsursuz xidmət etmiş hərbi qulluqçuların dövlət vəsaiti hesabına alınmış mənzillərlə təmin olunması həyata keçirilir. Ötən dövr ərzində dövlət vəsaiti hesabına 20 il və daha çox xidmət etmiş 3646 nəfər hərbi qulluqçu mənzillərlə təmin olunub. Hazırda siyahı üzrə daha 953 nəfər hərbi qulluqçu mənzil növbəsinə qəbul edilib və onların da tam təmirli mənzillərlə təmin olunması nəzərdə tutulur. 2024-cü ilin dövlət büdcəsindən 35 milyon manat məbləğində vəsait ayrılıb. Hazırda mənzil növbəsində dayanan, ancaq kirayədə qalan hərbçilərin kirayəyə götürdüyü yaşayış sahəsinə görə, vəsaitləri də dövlət ödəyir. Ümumilikdə, komissiya tərəfindən Müdafiə Nazirliyinin təqdim etdiyi siyahılar əsasında mənzil növbəsinə mütəmadi baxılır və vaxtaşırı mənzil almaq hüququ qazanan hərbi qulluqçular mənzil növbəsinə əlavə edilir.

Göründüyü kimi hərbçilərin sosial təminatının, mənzil şəraitinin yaxşılaşdırılması dövlətin yürütdüyü siyasətin ən prioritet istiqamətlərindən biri kimi hər zaman ön planda dayanır.

*E.CƏFƏRLİ*

# AŞPA-dan tələb olunur...

## Azərbaycan nümayəndə heyətinin fəaliyyəti bərpa olunmalıdır!

Müstəqil Azərbaycan özünün milli maraqlar üzərində qurulan xarici siyasətində beynəlxalq təşkilatlarda təmsilçiliyə böyük önəm verir. Bunun nəticəsidir ki, hazırda respublikamız həm geniş İslam dünyasında, həm də Avropa İttifaqı (Aİ) məkanında müxtəlif beynəlxalq təşkilatlarda uğurla təmsil olunur.

Bununla belə, ayrı-ayrı Avropa təsisatları bir sıra hallarda ikili standartlardan çıxış edərək öləmizə qarşı qərəzli yanaşmalar ortaya qoyur. Avropa Şurası Parlament Assambleyası (AŞPA) da belə qurumlar sırasında yer alır. Xaricdəki erməni lobbisinin təsirlərinə məruz qalan AŞPA təkcə son vaxtlarda ölkəmizə münasibətdə bir neçə dəfə adekvat olmayan davranışlar sərgiləyib. Cari ilin əvvəlindən isə Azərbaycan - AŞPA münasibətləri kritik dərəcədə pisləşib ki, bunun da günahı bilavasitə qarşı tərəfin üzərinə düşür. Prezident İlham Əliyev bu günlərdə Beynəlxalq Çernobbio Forumunda “Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu” adlı sessiyada ona ünvanlanan sualları cavablandırarkən məsələyə növbəti dəfə aydınlıq gətirib.

### AŞPA-nın qırmızı xətti keçməsi

Azərbaycan - AŞPA münasibətlərindən bəhs etmək üçün 20 il bundan əvvələ ekskurs etmək lazımdır. Respublikamızın quruma təmsilçiliyinin əsası 2001-ci ildə qoyulub. Prezident İlham Əliyev əlaqələrin tarixinə diqqət çəkərək vurğulayıb: “O zaman parlamentin üzvü idim və Azərbaycanın Avropa Şurasının Parlament Assambleyasındakı nümayəndə heyətinin ilk rəhbəri idim. Yəni, biz 2001-ci ildən etibarən orada idik. Bu illər enişli-yoxuşlu olub, əməkdaşlığımızın fəal mərhələsi də, Avropa Şurasının Parlament Assambleyası tərəfindən tənqid olduğumuz dövrlər də olub. Biz Avropa konvensiyalarının əksəriyyətinə qoşulmuşuq. Biz Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarını icra edirik və sair”.

Münasibətlərdəki dalğalanmalara baxmayaraq, Azərbaycanın heç vaxt qurumla əlaqələrini kəsmək kimi bir niyyəti olmayıb. Lakin 2024-cü ilin yanvarında AŞPA-nın atdığı addım qırmızı xəttin keçilməsi olub və Azərbaycan da buna adekvat şəkildə cavab verib. Söhbət ondan gedir ki, Azərbaycanın ötən ilin sentyabrında keçirdiyi 23 saatlıq lokal xarakterli antiterror tədbirlərinin nəticəsində Qarabağda suverenliyini tam təmin etməsi AŞPA-da qısqanclıqla qarşılanıb və burada ölkəmizə qarşı sanksiya xarakterli qətnamə qəbul olunub. Təbii ki, bu da Azərbaycanın sərt reaksiyası ilə qarşılanıb.

Burada yenə də keçmişi xatırlamaq lazım gəlir. Avropa Şurası Parlament Assambleyası 30 il ərzində Ermənistanın işğalçılıq siyasətini görməzdən gələn, “siyasi məsələlərə qarışmaq bizim platformanın işi deyil” deyən qurumlar siyahısında “liderlər” sırasında olub, desək, əsl həqiqəti ifadə etmiş olarıq. Hər dəfə Azərbaycan məsələ qaldıranda, işğal altında olan ərazilərimizə missiyalar göndərilməsinə çağırışlar edəndə, bütün bunları təpki ilə qarşılayan avropalı parlamentarilər heyrət doğuracaq “soyuqqanlılıqlarını” AŞPA-nın insan hüquqları ilə məşğul olan təşkilat olması ilə əsaslandırmağa çalışırdılar. Qoy, belə olsun, inanaq ki, AŞPA insan haqlarının qorunmasının fədaisidir, insan haqları qurum üçün qırmızı xəttir və s. Bəs onda nə üçün avropalı deputatlar bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünün taleyinə biganə qalırdılar? Parlamentarilər yumşaq kreslolarda əyləşib hansısa mücərrəd müzakirələr aparanda min bir əziyyətlə tikib qurduqları yuvalarından zorla, güllə yağışı altında çıxarılan azərbaycanlı məcburi köçkünlər vaqonlarda, qəzalı vəziyyətdə olan tikililərdə, çadırlarda yaşamaq məcburiyyətində qalmışdılar. Respublikamızın AŞPA-dakı nümayəndə heyəti azərbaycanlı qaçqınların və məcburi köçkünlərin vəziyyəti, ağır yaşayış şəraiti, qurulu şəhər və kəndlərimizin dağıdılması barədə foto və video materiallar təqdim edirdilər. Onlar isə bütün bunlara biganə yanaşırdılar.



Postmüharibə dövründə onilliklər ərzində azərbaycanlı qaçqınlara münasibətdə özünü “heç nəyi görməyən və eşitməyən” kimi aparan AŞPA sükutu pozub. Bəzi dövlətləri təmsil edən avropalı deputatlar yenə də insan haqları mövzusundan yapışıblar. Onlar yeri gəldi-gəlmədi Azərbaycanı guya Qarabağda erməni əhaliyə qarşı etnik təmizləmə aparmaqda və insan haqlarını pozmaqda ittiham edirlər. Qərəz, ağ yalan olar, daha bu qədər də yox! AŞPA-nın azərbaycanlı qaçqınlara münasibətdə nümayiş etdirdiyi loyallığı ilə postmüharibə dövründəki canfəşanlığı kəskin təzad təşkil edir. Azərbaycanlılar ev-eşiklərini, yuxarıda qeyd etdiyimiz kimi, güllə yağışı altında məcburi qaydada tərk etmişdilər. Onların bir çoxu həyatını itirdi, qarlı dağlarda soyuqdan, şaxtadan dondu. Ermənilər isə lokal xarakterli antiterror tədbirlərindən sonra Xankəndidən könüllü qaydada köç etdilər. Onlar ev əşyalarını, hətta mal-heyvan sürülərini də özləri ilə apardılar. Bu iki fərqli nümunəyə AŞPA-dan gələn tərs münasibətin məntiqi, daha doğrusu, məntiqsizliyi isə əsla başa düşülmür. Nə üçün biz bir halda AŞPA-nın loyallığının, susqunluğunun, digər halda isə qərəzçiliklə yoğrulan canıyananlığının şahidi olmalıyıq? Budurmu Qərb əxlaqı və demokratiyası?

Otuz illik işğal dövründə ağzına aldığı suyu boşaldan AŞPA postmüharibə dövründə Qarabağla bağlı məsələləri, o cümlədən də erməni əhalinin “pozulan” hüquqlarını dəfələrlə müzakirələrə çıxarıb və hər dəfə də qalib Azərbaycanın yaratdığı reallığa əyri güzgüdən baxış ortaya qoyub. Son olaraq yanvarın 24-də AŞPA-nın plenar iclası Azərbaycanın nümayəndə heyətinin etimadnaməsinin substantiv əsaslarla qəbul edilməməsinə çağıran qətnamənin lehinə səs verib. Öz növbəsində Azərbaycan Respublikasının Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyəti yanvarın 24-də qurumun iclasında bəyanatla çıxış edib. Bəyanatda bildirilir ki, AŞPA-da mövcud olan dözülməz irqçilik, Azərbaycanofobiya və İslamofobiya mühiti fonunda Azərbaycan nümayəndə heyəti AŞPA ilə əməkdaşlığı və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırmaq qərarına gəlib. Azərbaycanın nümayəndə heyəti bəyanatı səsləndirəndən sonra məkanı tərk edib.

### Azərbaycan öz torpağında döyüşüb, hər hansı bir təcavüzə əl atmayıb

Qeyd etdiyimiz kimi, Azərbaycanın AŞPA-da qəbul edilən məlum qətnaməyə cavabı kifayət qədər sərt olub. O cümlədən rəsmi Bakı bu qurumun Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərinin məhdudlaşdırılmasının lehinə səs verən üzvlərinin ölkəmizə girişinin qadağan edilməsi haqqında qərar çıxarıb. Öz gözündə tiri görməyən AŞPA bu ədalətli qərarı top-tüfənglə qarşılayıb. Son günlərdə qurumda təmsil olunan deputatlar ölkəmizə qarşı qərəzli açıqlamalarının saylarını artırıblar. Həmin açıqlamaların bəzilərinə diqqət yetirək. AŞPA-da Almaniya nümayəndə heyətinin rəhbəri Frank Şvabe Bakının bu qurumun Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərinin məhdudlaşdırılmasının lehinə səs verən üzvlərinin ölkəyə girişinin qadağan edilməsi haqqında qərarını tənqid edib və özüsayağı bir sıra iradlar səsləndirib. O, “Azadlıq Radiosu”na verdiyi 23 avqust tarixli müsahibəsində Azərbaycanın Avropa Şurasında üzvlükdə maraqlı olmadığını bildirərək, ölkəmizi Avropa Şurasının təbliğ etdiyi dəyərlərə sadiq olmamaqda ittiham edib. Həmçinin ölkəmizin Avropa Şurasının Parlament Assambleyasının müşahidəçilərini Milli Məclisə seçkiləri müşahidə etməyə çağırmaması da Şvabenin Azərbaycan əleyhinə danışmasına bir bəhanə olub.

Növbəti belə qərəzli açıqlama AŞPA-nın sədri, Yunanıstan parlamentinin üzvü Teodoros Rousopoulosdan eşidilib. O, Azərbaycan XİN-in AŞPA-nın müəyyən üzvlərinin respublikamızda arzuolunmaz şəxs hesab edilməsinə dair bəyanatına reaksiya verib: “Bu, Azərbaycanın Avropa Şurasındakı mövqeyini yalnız çətinləşdirəcək təəssüf doğuran siqnaldır. Üzv ölkələr demokratiya standartlarına hörmət edəcəklərinə dair öhdəlik götürüblər. Öz vicdanına uyğun səs verənlərin “qara siyahı”ya salınması yalnız əks-nəticə verə bilər”, - deyə Teodoros Rousopoulos vurğulayıb.



AŞPA-da təmsil olunan deputatlar bilməlidirlər ki, Azərbaycanın siyasəti müstəqillik və suverenlik prinsiplərinə əsaslanır. Bu siyasət hansısa mərkəzlərdə, Qərb dairələrində deyil, Bakıda Prezident İlham Əliyevin strateji baxışları, milli maraqları hər şeydən üstün tutması əsasında müəyyənləşdirilir. AŞPA-nın qərəzli yanaşmaları isə bizim siyasətimizə zərrə qədər də təsir göstərə bilməz. Prezident İlham Əliyevin apardığı müqayisə AŞPA-nın qərəzli mövqeyini bütün cəhətləri ilə ortaya qoyur. Dövlətimizin başçısının bildirdiyi kimi, biz bu gün Ukraynanın etməyə çalışdığından fərqli heç bir şey etməmişik. Ukrayna bu gün Qərbin çox geniş dəstəyinə rəğmən uğursuz şəkildə ərazi bütövlüyünü bərpa etməyə çalışır. Biz özümüz isə heç bir dəstək olmadan ərazi bütövlüyümüzü bərpa etdik. Biz öz torpağımızda döyüşdük və hər hansı təcavüzə əl atmadıq. “Buna səs verənlər bizi Avropa Şurasında görmək istəməyənlərdir. Yəni Azərbaycanın qərarı adekvat idi. Bizim qərarımız buna cavab idi. Onlar tərəfindən qərarın dəyişdiriləcəyi və bizim hüquqlarımızı bərpa etdikləri təqdirdə, gələn ilin yanvar ayında belə bir fürsət olacaqdır, bizim tətbiq etdiyimiz qadağa aradan qaldırılacaq. Mən təəssüf edirəm ki, İtaliya parlamentinin üzvləri bu qərarın lehinə səs veriblər. Səmimi desəm mən 70-dən artıq şəxsdən ibarət bu siyahıda olanların adlarını bilmirəm. Ancaq vəziyyəti yaxşılaşdırmaq üçün imkan var. Bizim nümayəndə heyətimizin fəaliyyəti bərpa edilməlidir və o zaman bu qadağa aradan qaldırılacaq”, - deyə Prezident İlham Əliyev qəti mövqeyini bildirib.

***Mübariz FEYİZLİ***

# Aşağı riskli, maksimum gəlirli...

## Neft Fondu Çin İnvestisiya Korporasiyası ilə investisiya imkanlarını qiymətləndirir

25 il
1999 - 2024
AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT FONDU

Azərbaycan Dövlət Neft Fondunun (DNF) icraçı direktoru İsrafil Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Çində işgüzar səfərdədir. Məlumata görə, səfər çərçivəsində Çin İnvestisiya Korporasiyasının sədri Penq Çun ilə baş tutan görüşdə tərəflər arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsi imkanları müzakirə olunub və birgə fəaliyyətin bundan sonra da davam etdirilməsinə dair qarşılıqlı maraq ifadə edilib.

Çinin ən nəhəng suveren fondlarından biri ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi Fondun qlobal bazarlarda baş verən proseslərə, o cümlədən İT və startuplar üzrə dünyada öz mövqeyini artıran Çin şirkətlərinin səhmlərinə adekvat münasibətin təzahürü kimi dəyərləndirilə bilər. Hazırda Çinin müxtəlif lider şirkətlərinin qlobal iqtisadiyyatda payı durmadan artır, investorların yeni yatırımları müsbət dalğa yaradır və qlobal səhmlərdə Çin investorlarının rolu yüksəlir. Hazırda Çin birjalarındakı səhmlərin ümumi dəyəri 20 trilyon dollara yaxınlaşır. Çin səhm bazarı dünyada yalnız 38 trilyon dollarlıq ABŞ səhm bazarından geri qalır. Bütün bu amillər DNF-nin də Çinin investisiya və səhmlərinə marağını artırır, Çin İnvestisiya Korporasiyası ilə əməkdaşlıq isə yeni imkanlar yaradır.

Ümumiyyətlə, Dövlət Neft Fondu davamlı olaraq investisiya siyasətini təkmilləşdirir, risklərin aşağı olması şərtilə maksimum gəlirliliyin əldə edilməsinə imkan verən investisiya siyasəti həyata keçirir. Fondun investisiya portfelinin proqnozlaşdırılan məcmu dəyəri hazırda 52,6 milyard dollara bərabərdir ki, valyuta tərkibində baza valyutası və ya 65 faizi ABŞ dollarıdır. Aktivlərin 20 faizi avroda, 5 faizi İngiltərə funt-sterlinqində, qalan 10 faizi isə digər valyutalarda saxlanılır. İnvestisiya portfelinin valyuta səbətini diversifikasiya edən DNF təxminən 10 ilə yaxındır ki, portfelinin bir hissəsini Çin yuanında investisiyalara yönəldir və bu sahəyə sərmayələrdə artım müşahidə edilir. 2024-cü il iyulun 1-nə Fondun investisiya portfelinin Çin yuanının payı 1 faizdən 1,4 faizə qaldırılıb.

Hazırda Fondun investisiya portfelinin 50 faizi borc öhdəliklərindən ibarət istiqrazlar, 25 faizi səhmlər, 10 faizə qədəri daşınmaz əmlaka və daşınmaz əmlak üzrə kredit reytinqinə malik olmayan borc öhdəlikləri, 15 faizi isə qızıl investisiyalarıdır. İnvestisiya portfelinin məcmu dəyərinin minimum 90 faizinin beynəlxalq kredit agentlikləri “Standard & Poor’s” tərəfindən verilmiş “A” və “Fitch” - “Moody’s” tərəfindən verilmiş “A2” kredit reytinqindən ibarətdir. DNF qlobal investor olmaqla öz investisiya strategiyasını risk gəlirlilik profili nəzərə alınmaqla vəsaitlərin strateji bölgüsü əsasında formalaşdırır və hazırki investisiya siyasəti ilə müəyyən edilən müvafiq alt portfellər üzrə bençmarklara uyğun olaraq müxtəlif investisiya aktivləri, regionlar, sektorlar və valyuta növləri üzrə bölgülər əsas olmaqla şaxələndirilmiş portfel qurub. Coğrafi bölgülər üzrə yatırımların həyata keçirilməsi qeyd olunan yanaşmanın təcəssümüdür. Bu baxımdan Fond qlobal bazarlarda baş verən prosesləri diqqətlə izləyərək öz investisiya siyasətinə müvafiq korrektələr edir, valyuta vəsaitlərinin saxlanması, yerləşdirilməsi və idarə olunması qaydalarına dəyişikliklər edir, həmçinin, portfelində daha gəlirli sahələrə sərmayə qoymağa çalışır, həmçinin, birjada kotirovka olunan səhmlərə investisiya çərçivəsində bazar kapitalizasiyasına görə dünyanın inkişaf etmiş ölkələrinin ən iri şirkətləri özündə ehtiva edən “MSCI World” indeksini izləyir və bu kontekstdə indeksin tərkibinə daxil olan bütün şirkətlərin çəkilərinə uyğun investisiya edir.

Son illərdə regionlarda baş verən mürəkkəb geosiyasi prposesləri də nəzərə alsaq, DNF-nin həm makroiqtisadi və geosiyasi, həm də cari bazar konyukturasında baş verən proseslərə uyğun addımlar atdığını görmək olar, mümkün iqtisadi dalğalanmalar təhlil edilərək müvafiq taktiki addımların atılması da qlobal proseslərin təsiri nəticəsində baş verən qısamüddətli itkilərin minimallaşdırılması məqsədi güdür. Məhz bu çevik və şaxələndirilmiş investisiya sayəsində Neft Fondu 2023-cü ildə mükəmməl sərmayə imkanları əldə edib. Belə ki, investisiya gəlirliliyi 7,1 faiz təşkil edən Fond yaranma tarixindən ən yüksək gəlirlilik göstəricisinə nail olub. İnvestisiya alətlərində istiqraz və pul bazarı alətləri üzrə gəlirlər 3.1 faiz, səhmlər üzrə 4.3 faz təşkil edib.

Ümumilikdə, 2024-cü il iyulun 1-nə olan, strateji idarətmə planına əsasən, Fondun investisiyalarında Avropa ölkələrinin payı 30,7 faiz, Asiya-Sakit Okean regionu ölkələrinin payı 12,8 faiz təşkil edir. Digər regionlardan Şimali Amerikanın payı 37,1 faizdən 33,1 faizə endirlib, Avstraliya və Yeni Zelandiyanın payı 0,6 faizdən 0,7 faizədək artırılıb.

2024-cü il üzrə müəyyən edilmiş siyasətə əsasən, Fond minimum risklər şərti ilə maksimum gəlirliliyin əldə edilməsinə imkan verən investisiya siyasəti həyata keçirməyi hədəfləyib. Bu strateji baxışa əsasən, qlobal bazarlarda daha fəal və cəlbedici olan şirkətlərin səhmlərinə yatırım edilməsi və diversifikasiya planları əsas yer tutur. Bir müddət əvvəl DNF-nin dünya nəhəngi olan “Tesla” və “İntel” şirkətlərinin səhmlərinə investisiya yatırması da bu siyasətin bir hissəsidir. Qeyd edək ki, bu yatırım sayəsində Fond səhm portfelinin tərkibinə “Tesla”nın 84 milyon dollar, “İntel” şirkətinin isə 31 milyon dollar səhmlərini daxil edib. Bu, ümumi səhm portfelində həmin şirkətlərin payının 0,7 faiz və 0,2 faiz təşkil etməsi deməkdir. Gələcəkdə “Tesla” və “Intel”, həmçinin digər İT şirkətlərinin ARDNF-nin səhm portfelində olan çəkiləri “MSCI World” indeksinin tərkibinə uyğun şəkildə dəyişəcəyi istisna deyil. Çünki Fond üçün hazırda ən strateji yatırım bloku İT texnologiyaları və rəqəmsal ticarət platformalarıdır. Məhz bu səbəbdən Fondun ən çox səhmlərinə sahib olduğu 5 şirkət sırasında “Microsoft”, “Apple”, “NVIDIA”, “Amazon” və “Meta platforms”un olması təsadüfi deyil. Çin İnvestisiya Korporasiyası ilə əməkdaşlığın isə Çinin qlobal şirkətlərinin səhmlərinin əldə edilməsində yeni imkanlar açacağı da istisna deyil.

***ELBRUS***

# Çernobbioda Azərbaycan etirafı...

## Rəsmi Bakının yürütdüyü enerji siyasəti qarşılıqlı əməkdaşlığa, rifaha və həmrəyliyə xidmət edir

Prezident İlham Əliyev Beynəlxalq Çernobbio Forumunda "Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu" adlı sessiyada çıxışı zamanı region və ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edən bir sıra məsələlərə toxunub. İlk öncə, dövlətimizin başçısı Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında roluna diqqət çərərək rəsmi Bakının yürütdüyü enerji siyasətinin qarşılıqlı əməkdaşlığa, rifaha və həmrəyliyə xidmət etdiyini vurğuladı. Azərbaycanın qlobal enerji bazarının ən etibarlı və layiqli üzvü kimi bu həmrəylik qərarları enerji sahəsində tərəfdaş olan ölkələrin sayının daha da artmasına səbəb olmaqdadır. 3500 km-lik Cənub Qaz Dəhlizi boru kəməri sistemi 10 ölkənin enerji təhlükəsizliyini təmin edir. Hazırda 10 ölkə Azərbaycandan qaz alır və onlardan 7-si Avropa İttifaqının üzvüdür. Bu səbəbdən Avropa Komissiyası Azərbaycanı ümumAvropa qaz təchizatçısı və etibarlı tərəfdaş adlandırır.

Cənab Prezidentin bəyan etdiyi kimi bu strateji boru kəmərinin başlanğıcı Azərbaycandadır və İtaliyaya qədər uzanır. Ancaq marşrut boyu mövcud olan əlavələr və interkonnektorlar sayəsində bu kəmər geniş Avropa və Avrasiya coğrafiyasını əhatə edir. Ancaq bu həmrəylik halqası daha da böyüyür və hazırda ən azı üç Avropa ölkəsi ilə qaz təchizatına dair danışıqlar aparılır ki, yaxın günlərdə onlar da Cənub Qaz Dəhlizi ailəsinin üzvünə çevriləcək. Avropa İttifaqı (Aİ) ölkələrinin öz enerji təhlükəsizliyini təmin etmək üçün Azərbaycanla davam edən yeni danışıqları qaz təchizatının növbəti mərhələdə daha da artması və 2027-ci ilin sonuna qədər digər Avropa ölkələrinin də razılığı əldə etməsini mümkünləşdirəcək.

### Avropa üçün təminatçı və əlaqələndirici ölkə...

Azərbaycan təminatçı ölkə kimi strateji mövqeyini artırmaqla yanaşı, həm də böyük bir coğrafiyada əlaqələndirici, yanacağın şaxələndirilməsində açar ölkələrdən biri kimi də mühüm yer tutur. Bu, Rusiya və Ukrayna arasında davam edən müharibə nəticəsində regionda ritmi və ahəngdarlığı pozulan yanacaq-enerji təchizat zəncirlərinin pozulması fonunda özünü daha qabarıq göstərməkdədir. Söhbət regionun ən nəhəng qazötürücü sistemi olan Rusiya-Ukrayna-Avropa qaz nəqli şəbəkəsinin növbəti ildə fəaliyyətinin dayandırılması ehtimallarından gedir, bu kəmərin işini dayandırması böyük bir coğrafiyanın enerji zəncirinin tamamilə sıradan çıxması demək olardı. Belə ki, 2024-cü il dekabrın sonunda hüquqi qüvvəsi başa çatan Rusiya ilə Ukrayna arasındakı qaz tranzitinə dair dövlətlərarası sazişin müddətinin uzadılıb-uzadılmaması sual altındadır. Ukrayna üzərindən Avropaya ildə 40 milyard kub.metr təbii qaz tranzitini təmin edən kəmərlə hazırda Avropanın 10-a yaxın ölkəsinə qaz çatdırılır. Rəsmi Kiyev 2025-ci ilin yanvarınadək "Qazprom" ilə "Naftoqaz" arasında imzalanmış 5 illik sazişin müddətinin uzadılmayacağını və bununla da Avropaya nəql edilən rus qazının dayandırılacağını bəyan edib.

Sözsüz ki, bu, daha çox Aİ-ni narahat edir, çünki qış fəsli üçün Avropanın anbarlarında mövcud olan qaz ehtiyatı kifayət etmədiyindən Rusiya qazına ehtiyac yenə labüd olacaq. Avropadakı sıxılmış qaz ehtiyatı da nəzərəçarpacaq həcmdə deyil. Ona görə də Avropa ölkələrinin əksəriyyəti qaz kəmərinin fəaliyyətinin məhdudlaşdırılmasını məqsədəuyğun hesab etmir, xüsusilə də Macarıstan, Slovakiya, Avstriya, Bolqarıstan öz ölkələrinin enerji təhlükəsizliyinin çətin vəziyyətə düşəcəyindən narahatdır. Digər Mərkəzi Avropa ölkələri də qaz bazarındakı mürəkkəb şəraiti nəzərə alaraq tranzit kəmərinin tam qapadılmasına qarşıdır.



Baş verənlər Azərbaycanın strateji coğrafi əhəmiyyətini daha da artırır və Ukrayna ərazisindən Azərbaycan qazının tranzitinin davam etdirilməsi ilə bağlı təşəbbüslər dayanmadan artmaqdadır. İlham Əliyevin Çernobbio Forumunda xatırlatdığı kimi bununla bağlı Rusiya, Ukrayna və Avropa təsisatları tərəfindən ölkəmizə müraciət edilib. Hazırda hər iki ölkə Rusiya qazının tranziti müqaviləsinin uzadılması və Azərbaycan qazının Ukrayna ərazisindən Avropaya nəqli ilə bağlı müzakirələri Azərbaycan vasitəsilə aparır. "Bir neçə aydır ki, biz ümumi məxrəcə gəlmək üçün böyük səylər göstəririk. Məlumdur ki, bu tranzit dayanarsa, - bu isə dekabr ayına təsadüf edəcək, - bir neçə Avropa İttifaqı ölkəsi təbii qazın fiziki əlçatanlığı ilə bağlı ciddi çətinliklərlə üzləşəcək. Biz, sadəcə, həmin ölkələri və Ukraynanı dəstəkləmək istəyirik. Çünki qazın tranziti dayandığı halda Ukraynanın qazpaylayıcı sistemi tamamilə iflic olacaqdır".




### Azərbaycan qazının Rusiya və Ukrayna ərazisindən Avropaya nəqli...

Göründüyü kimi Aİ də tam ciddi şəkildə anlayır ki, bölgədə 50 ildən artıq rentabelli və nəhəng bir qaz təchizatı sisteminin pozulması Ukrayna daxil, Avropanın böyük bir hissəsinin enerji dayanıqlılığını sıradan çıxarmaqla, iqtisadi risklər yarada bilər. Ona görə də, müxtəlif sxemlər üzrə qazın diversifikasiya olunmasında və təbii qazın Ukrayna üzərindən Avropaya nəqlində Azərbaycana olan ehtiyaclar artır. Avropa rəsmiləri Azərbaycanın qazının mübadilə olunaraq Ukraynadan keçməklə Aİ-yə nəqlini mümkün sayırlar.

Ancaq bu təminatların həlli, daha doğrusu, ikinci enerji marşrutunun açılması üçün yeni infrastrukturlar lazımdır. Həmçinin qazpaylayıcı və ötürücü sistemlərin, konnektorların birləşdirilməsi, əlavə qazötürücü blokların yaradılması və bütün bu infrastrukturların qurulması üçün böyük həcmdə investisiyalar tələb olunur və bütün bu işlər böyük vaxt tələb edir. Ona görə də ən asan və rahat yol Cənab İlham Əliyevin də bəyan etdiyi kimi regionda rifah və təhlükəsizliyin təmin edilməsi, regionu viran edən bu müharibəyə son qoymaq üçün əlavə addımların atılmasıdır.

### Çernobbio Azərbaycana yeni investisiya imkanları da açdı...

Çernobbio görüşləri Azərbaycan üçün əlverişli iqtisadi platforma olmaqla həm də investisiya imkanlarının da geniş müzakirəsi və konkret qərarların qəbul edilməsi üçün də fürsət kimi dəyərləndirilə bilər. Azərbaycan Prezidentinin Səudiyyə Ərəbistanı Krallığının investisiya naziri, Azərbaycan- Səudiyyə Ərəbistanı Hökumətlərarası Müştərək Komissiyanın həmsədri Xalid bin Əbdüləziz Əl-Falih ilə görüşü bu baxımdan çox səmərəli və məhsuldar hesab olunmalıdır. Azərbaycanda "yaşıl enerji" sektorunda ambisiyalı proqramlarla təmsil olunan Səudiyyə hökuməti bu istiqamətdə fəallığını daha da artırmaq, bərpa olunan enerji sektorunda daha iritutumlu sərmayələrə imza atmaq niyyətini bəyan edib. Bu ölkənin "Acwa Power" şirkəti hazırda Azərbaycanda Cənubi Qafqaz regionunun ən böyük külək enerjisi stansiyasının tikintisini davam etdirir və gələn ilin sonunda həmin stansiyanın istifadəyə verilməsi planlaşdırılır. "Acwa Power" 200 MV gücündə müasir enerji blokundan başqa, yeni güclərin yaradılmasında da maraqlıdır. Xüsusilə də azad edilmiş ərazilərdəki "yaşıl enerji" resurslarına investisiya yatırımları istisna deyil. Çernobbio görüşü bu baxımdan Səudiyyə Ərəbistanı şirkətlərinin Azərbaycanda əlavə investisiya proqramlarına cəlbinin reallaşması üçün faydalı sayıla bilər.

**E.CƏFƏRLİ**

## Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumu işinə başlayıb

# Qəlbi həmişə Azərbaycanla döyünənlər...

Sentyabrın 9-da paytaxtımızda əlamətdar bir tədbirin açılışı baş tutub. Söhbət Bakıda işinə başlayan Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumundan gedir. Forumda 23 ölkədən 80-dən çox azərbaycanlı alim, ümumilikdə, 200-ə yaxın elm xadimi iştirak edir. Diasporla İş üzrə Dövlət Komitəsinin, Elm və Təhsil Nazirliyinin dəstəyi, Dünya Azərbaycanlı Alimlər Dərnəyinin təşkilatçılığı ilə baş tutan tədbir üç gün davam edəcək. Prezident İlham Əliyev forum iştirakçılarına məktub ünvanlayaraq belə bir mühüm tədbirin keçirilməsi münasibətilə onlara təbriklərini çatdırıb.

### Böyük rəmzi məna daşıyan Forum

Böyük tarixi keçmişi olan Azərbaycan son illərdə möhtəşəm uğurlara imza atıb. Hazırda milli maraqlarını qətiyyətlə qoruyan, daim müstəqillik və suverenlik prinsiplərindən çıxış edən Azərbaycan dünyada ləyaqətli dövlət kimi tanınır. Uğurlarımızın tacı isə heç şübhəsiz ki, 2020-ci ildə baş verən 44 günlük müharibənin nəticələrinə uyğun olaraq ərazi bütövlüyümüzün hərbi-siyasi yolla təmin olunması, ötən il sentyabrın 23-24-də keçirilən 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində Qarabağda suverenliyimizin tam təmin edilməsidir. Hazırda ölkəmizin bütün ərazilərində, o cümlədən də Şuşada, Xankəndidə, Xocalıda şanlı bayrağımız əzəmətlə dalğalanaraq dünyanın dörd bir tərəfində yaşayan azərbaycanlılara sonsuz qürur hissi yaşadır.

Əldə olunan qələbələrimiz son 200 illik tariximizin ən böyük uğurlarıdır. Biz bu qələbələrədək həmişə torpaq itkilərinə məruz qalmışıq. Ötən əsrdə imperialist güc mərkəzlərinin məkrli ssenariləri əsasında tarixi torpaqlarımızda Ermənistan adlı saxta dövlət qurulub. Sonradan isə onun sərhədləri yenə də Azərbaycan əraziləri hesabına daha da genişləndirilib. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuz 44 günlük müharibədə və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində xalqımızın nəyə qadir olduğunu bütün dünyaya nümayiş etdirdi. Yada salaq ki, müharibə günlərində dünya azərbaycanlıları yüksək həmrəylik ortaya qoydular. Həmin günlərdə harada yaşamasından asılı olmayaraq bütün dünya azərbaycanlılarının qəlbi ön cəbhədə döyünürdü. Hər kəs Ali Baş Komandandan müjdə soraqları gözləyirdi. Prezident İlham Əliyev tədbir iştirakçılarına ünvanladığı məktubunda ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğu bir zamanda Forumun təşkilinin rəmzi məna kəsb etdiyini xüsusi vurğulayıb.




Dünyanın hazırkı reallıqları fonunda diaspor təşkilatlarının üzərinə mühüm vəzifələr düşür. Onlar ayrı-ayrı ölkələrdə yerli icmalarla sıx əlaqələr qurmaqla erməni lobbisinin Azərbaycana qarşı yönəlmiş çirkin fəaliyyətlərinin məhdudlaşdırılmasında, ölkəmizin həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynaya bilərlər. Faktlar təsdiqləyir ki, xaricdəki Azərbaycan diasporu bu yöndə məqsədyönlü fəaliyyətlər sərgiləyir. Hazırda dünyanın 51 ölkəsində 560-dan çox diaspor təşkilatımız var. Onların təşkilatlanmasında ziya sahibləri olan alimlər mühüm rol oynayırlar. Bundan məmnunluğunu bildirən dövlətimizin başçısı "Xaricdə yaşayan həmvətənlərimizin sıralarında elm xadimlərinin geniş yer tutması Azərbaycan diasporunun inkişafına böyük imkanlar yaradır. Diasporumuzun fəaliyyətinin sistemliliyinin təmin edilməsi məqsədilə elm sahəsində çalışan soydaşlarımızla daha sıx münasibətlər qurulması, milli maraqlarımıza xidmət göstərən müxtəlif proqram və layihələrdə onların yaxından iştirakının dəstəklənməsi istiqamətində ötən müddət ərzində təqdirəlayiq işlər görülmüşdür", - deyə bildirib.

### İnteqrasiya, Vətən elmi ilə əlaqələrin genişləndirilməsi zərurəti

Son vaxtlarda xaricdə fəaliyyət göstərən alimlərimizin Azərbaycan elminə inteqrasiyası istiqamətində görülən işlər təqdirəlayiqdir. Azərbaycan alimlərinin diasporu ilə AMEA arasında əməkdaşlığı genişləndirmək məqsədilə MDB-də, Avropa ölkələrində və ABŞ-da yaşayıb yaradan, elm müxtəlif sahələrini əhatə edən, maarif və yaradıcılıq işləri ilə məşğul olan həmvətənlərimizlə, eləcə də diaspora təşkilatlarının rəhbərləri ilə əməkdaşlıq əlaqələri qurulur. 2018-ci ildə AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunun məsul əməkdaşları ilə birgə yaradılmış elektron məlumat bazasında xaricdə yaşayan alimlərimizin elmi fəaliyyətləri haqqında dolğun məlumatlar yerləşdirilib. Bu bazada 500-dən artıq alim həmvətənimiz haqqında məlumatlar yer alıb. Xaricdə yaşayıb fəaliyyət göstərən alim və mütəxəssislərimizlə mütəmadi olaraq əlaqələr qurulur. Onlar akademiyanın təşkil etdiyi elmi konfrans və seminarlara dəvət olunur, məruzələrlə çıxış edir və müxtəlif elmi mövzularda fikir mübadiləsi aparırlar.

Elə forumun keçirilməsində əsas məqsəd də müxtəlif ölkələrdə yaşayan azərbaycanlı alimləri bir araya gətirmək, yerli alimlərlə görüşdürmək, bilik və təcrübə mübadiləsi aparmaq, dünya azərbaycanlı elm adamlarının şəbəkələşməsinə töhfə verməkdir. Tədbir çərçivəsində iştirakçılar işğaldan azad edilmiş ərazilərin bərpası prosesində alimlərimizin bilik və təcrübəsindən yararlanmaq məqsədilə Şuşa və Xankəndi şəhərlərində olacaq, Qarabağ Universitetinin müəllim heyəti ilə müzakirələr aparacaqlar. Prezident İlham Əliyev tədbir iştirakçılarına ünvanladığı məktubunda forumun dünyanın müxtəlif ölkələrində məskunlaşmış azərbaycanlı alimlərin şəbəkələşməsi, onların




elm və təhsil ocaqlarımızla əlaqələrinin dərinləşməsi, qazanılan müştərək nailiyyətlərdən yararlanmaqla ölkəmizin qlobal hədəflərə sürətlə yaxınlaşması, habelə Azərbaycan elminin dünya elm məkanına inteqrasiyası baxımından son dərəcə səmərəli olacağına əminliyini bildirib. "İnanıram ki, Forum Azərbaycanda elmin dayanıqlı və innovativ inkişafı naminə ətraflı fikir mübadiləsi və dolğun müzakirələr şəraitində keçəcək, işğaldan azad edilmiş tarixi ərazilərimizin bərpası prosesinə alimlərimizin öz bilik və təcrübələri ilə töhfə verə bilmələri üçün faydalı əməkdaşlıq yollarını müəyyən edəcəkdir", - deyə dövlətimizin başçısı vurğulayıb.

### Zamanın tələbi - peşəkar kadrların yetişdirilməsi

"Xaricdə yaşayan Azərbaycan alimlərinin iştirakı ilə elmimizin səviyyəsinin artırılması, yeni dövrün tələblərinə uyğun kadrların yetişdirilməsi zamanın tələbidir".

Bu fikirləri ADA Universitetinin rektoru Hafiz Paşayev forumun açılış mərasimində səsləndirib. ADA Universitetinin fəaliyyətindən danışan rektor rəhbərlik etdiyi ali təhsil ocağının səmərəli yol keçərək yeniliklər yaratdığını qeyd edib və bildirib ki, bu yol asan olmayıb.

Onun sözlərinə görə, sovet dövründə ölkəmizdə elm və təhsil çox yaxşı inkişaf etdirildi. Bakı Dövlət Universitetinə xaricdən alim və mütəxəssislər cəlb edildi. Dəqiq elmlər sahəsində də mütəxəssislərə ehtiyac vardı və bu ehtiyac SSRİ-dən olan alimlərin hesabına yerinə yetirilirdi.

Rektor bildirib ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bütün sahələr kimi elm və təhsil sahəsində də yeniliklərin tətbiq edilməsi zərurəti yarandı. "Elm çox cəlbedici bir sahədir. Azərbaycan elminin səviyyəsinin yenidən qalxması, peşəkar kadrların yetişdirilməsi üçün nələri etmək lazım olması barədə düşünmək lazımdır. Hazırda çox istedadlı gənclərimiz yetişir. Həmin gənclərin elmimizə, təhsilimizə töhfə verəcəklərindən əminik", - deyə Hafiz Paşayev qeyd edib.

**M.ABDULLAYEV**

# Bakının vasitəçiliyi...

## Rusiya-Ukrayna münaqişəsinə son qoya bilər

Cənubi Qafqazın lider dövləti olan Azərbaycan beynəlxalq müstəvidə siyasətini uğurla davam etdirir. Ümumiyyətlə, Azərbaycan hazırda regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir. Bütövlükdə, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin qanunauyğun nəticəsi kimi, Azərbaycan dünyada böyük etimad qazanan ölkə - etibarlı tərəfdaş və nüfuzlu dövlət kimi tanınır. Dövlət başçısının qeyd etdiyi kimi, apardığımız siyasət bizə dünyada çox böyük hörmət qazandırıb, Azərbaycana çox böyük rəğbət var.




## Rusiya-Ukrayna müharibəsi başlayandan sonra...

Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini təmin etməsi isə ölkəmizin beynəlxalq müstəvidə mövqelərini daha da gücləndirib. Çünki bu hadisə ilə Cənubi Qafqazda yeni reallıqlar yaranıb. Beynəlxalq müstəvidə nüfuzunu daha da yüksəldən Azərbaycan regionumuzla yanaşı, bir sıra bölgələrdə də problemlərin həllində, Avropanın enerji təhlükəsizliyində də rolu artmaqdadır. Xüsusilə, Rusiya-Ukrayna müharibəsi başlayandan sonra Avropanın Azərbaycana ehtiyacı artıb və ölkəmiz etibarlı tərəfdaş kimi qitənin enerji təhlükəsizliyinin təmin olunmasında vacib addımlar atmaqdadır. Yeri gəlmişkən, Rusiya-Ukrayna müharibəsi bu gün iki ölkənin qarşıdurması səviyyəsindən çıxaraq daha geniş müstəviyə keçməkdədir. Ona görə də, dünyanın sülhpərvər cəmiyyətləri bu münaqişənin sonlandırmaq üçün yollar axtarırlar. Tərəflər arasında sülhün əldə edilməsi üçün Azərbaycanın da vasitəçi rolunda əhəmiyyətli töhfələr verə biləcəyi vurğulanır.



## Çernobbio Forumunun gündəmində...

Belə bir məsələ sentyabrın 6-da İtaliyada Azərbaycan Prezidenti İlham Əliyevin əsas qonaq kimi iştirak etdiyi "Dünya, Avropa və İtaliya haqqında bilgilər" mövzusuna həsr olunmuş Beynəlxalq Çernobbio Forumunda bir daha gündəmə gəlib. Forumun "Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu" adlı sessiyasında çıxış edən dövlətimizin başçısına moderator "Rusiya-Ukrayna münaqişəsinə son qoyulması kontekstində müzakirələrdə ölkənizi necə görürsünüz? Hər hansı rolunuz və ya təklifləriniz ola bilərmi? Çünki hazırda bir sıra təkliflər və platformalar mövcuddur" sualı ünvanlayıb. Prezident İlham Əliyev isə bildirib ki, nəzəri cəhətdən bu mümkündür: "Çünki Rusiya və Ukrayna ilə yanaşı, biz 70 il ərzində Sovet İttifaqının tərkib hissəsi olmuşuq. Bizim xalqlararası və siyasi səviyyədə şaxələndirilmiş münasibətlərimiz var. Bu gün bizim Rusiya və Ukrayna ilə çox yaxşı münasibətlərimiz var. Biz Ukrayna da daxil olmaqla, bütün ölkələrin ərazi bütövlüyünü və suverenliyini güclü şəkildə dəstəkləyirik. Bununla yanaşı, biz Rusiyaya qarşı sanksiyalar kampaniyasına qoşulmamışıq və belə bir niyyətimiz yoxdur. Beləliklə, biz praqmatik münasibətlərin mövcudluğu fonunda rol oynaya bilərik. Biz heç vaxt bunun təşəbbüskarı olmamışıq, çünki bu işdə yaxından iştirak etmək istəyənlər kifayət qədərdir. Ancaq bizim iştirakımıza zərurət yaranarsa, buna hazırıq". Dövlət başçısının dediyi kimi, ölkəmiz qlobal arenada müxtəlif aktorlar arasında körpülərin qurulması üzərində fəal çalışır.

## Bakı və Ankaranın vasitəçiliyi münaqişəyə son qoya bilərmi?

Xatırladaq ki, hələ 2008-ci ildə Rusiya ilə Gürcüstan arasında baş verən gərginliyin aradan qaldırılmasında ölkəmiz fəal vasitəçi rolunu oynamışdı. Bundan əlavə, ölkəmiz fərqli siyasi-hərbi qütblər arasında dialoqun baş tutması üçün ən uyğun məkanlardan biri kimi özünü təsdiqləyib. Məsələn, Azərbaycanın paytaxtı Bakıda Rusiya və NATO-nun ali hərbi rəhbərlərinin görüşlər keçirməsi ölkəmizin strateji dialoq platforması kimi çıxış etdiyini göstərir. Ölkəmiz 2017-2020-ci illərdə NATO-Rusiya və ABŞ-Rusiya arasında yüksək vəzifəli hərbçilərin 7 görüşünə ev sahibliyi edib. Belə mötəbər görüşlərin keçirilməsi üçün Azərbaycanın seçilməsi beynəlxalq səviyyədə ölkəmizə olan böyük inamın ifadəsidir.

Bütün bunlar deməyə əsas verir ki, Azərbaycan Rusiya-Ukrayna müharibəsinin başa çatması üçün də tərəflər arasında ən uğurlu vasitəçilərdən biri ola bilər. Məlumdur ki, qardaş Türkiyə Rusiya və Ukrayna arasında sülhün təmin olunması üçün bir sıra mühüm təşəbbüslər göstərib. Rəsmi Ankaranın vasitəçiliyi nəticəsində tərəflər bir sıra məsələlərdə razılıq da əldə ediblər. Dünyanın bəzi ölkələri də vasitəçilik təklif etsələr də, bu münaqişədə öz maraqlarını güdürlər.

Amma Bakı ilə Ankara hər zaman xoş niyyətlərini ifadə edərək dünyada sülhün və sabitliyin təmin olmasına çalışır. Bu baxımdan, qardaş ölkələr Rusiya-Ukrayna müharibəsinin tezliklə başa çatmasının tərəfdarıdır.

## İlyas Hüseynov: Bu çətin missiyanın öhdəsindən gələ bilər

Məsələ ilə bağlı qəzetimizə açıqlama verən politoloq İlyas Hüseynov bildirib ki, Azərbaycan regionda və dünyada sülhün təmin olunmasında maraqlıdır. Eyni zamanda, Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş dövlət kimi çalışır ki, dünyada beynəlxalq hüququn fundamental norma və prinsiplərinə riayət olunsun. Ölkəmizin qlobal təşəbbüsləri də sülh və təhlükəsizlik yönündədir, qarşılıqlı faydalı əməkdaşlığın tərəfdarıdır. Onun sözlərinə görə, bu xüsusda Prezident İlham Əliyevin Rusiya ilə Ukrayna arasında müharibəyə son qoyulması, münasibətlərin tənzimlənməsi istiqamətində fikirləri də beynəlxalq ekspertlər tərəfindən diqqətlə izlənilir: "Azərbaycan Rusiyaya qarşı tətbiq olunan sanksiyalara qoşulmur, mehriban qonşuluq siaysətini dəstəkləyir və ölkələrimiz arasında imzalanmış müttəfiqlik müqaviləsi münasibətlərin əsas göstəricisidir. Digər tərəfdən, Azərbaycan Ukraynanın ərazi bütövlüyünü də dəstəkləyir, bütün dövlətlərə münasibətdə ərazi bütövlüyünün toxunulmazlığını əsas prinsip olduğunu dəfələrlə bəyan edib".

Məhz bu yanaşmaya və əvvəlki təcrübəyə əsasən politoloq hesab edir ki, Bakı Moskva və Kiyev arasında dialoq üçün vasitəçi ola bilər. Təəssüf ki, bugünə qədər olan vasitəçilik səyləri nəticə verməyib. "Qardaş Türkiyənin Antaliya Diplomatiya Forumunda, İstanbul prosesi çərçivəsində irəli sürdüyü təşəbbüslər sonradan müharibə meydanında "məhv" edilib. Eləcə də "Taxıl dəhlizi", əsir və girovların mübadiləsi məsələsi də çox uğurlu vasitəçilik nümunəsi olsa da, hazırda yeni vasitəçiliyə ehtiyac var. Göründüyü kimi, Ankara və Bakı hər zaman sülh naminə fəal çalışır. İki qardaş ölkənin təşəbbüsləri bu müharibənin başa çatmasında öz rolunu oynaya bilər. Düşünürəm ki, rəsmi Bakı bu çətin missiyanın öhdəsindən gələ bilər. Azərbaycanın irəli sürdüyü dialoq platformasına Rusiya ilə Ukrayna ciddi nəzər yetirməlidir. Və bu vasitəçilik səyləri öz nəticəsini verə bilər", -deyə İ.Hüseynov vurğulayıb.

*Nardar BAYRAMLI*

# 4-ü qızıl olmaqla 11 medal

**Fransanın paytaxtı Paris şəhərində baş tutan Yay Paralimpiya Oyunlarının bağlanış mərasimi keçirilib. "Stad de Frans" stadionunda təşkil edilən tədbirdə səhnəyə əvvəlcə iştirakçı ölkələrin nümayəndə heyətləri daxil olublar. Ölkələrin rəsmi paradında Azərbaycan Bayrağını Olimpiadanın qızıl mükafatçıları olan paraatletlər Lamiyə Vəliyeva və Səid Nəcəfzadə dalğalandırıblar.**













## Parisdə tarix yazan paralimpiyaçılarımız

Bəli, Paris Yay Paralimpiya Oyunları artıq tarixdir. Burada tarix olan həm də Azərbaycan paralimpiyaçılarının uğurlu çıxışlarıdır. Qeyd edək ki, "Paris-2024" Yay Paralimpiya Oyunlarında 7 idman növü üzrə 18 idmançı ilə təmsil olunan Azərbaycan 4 qızıl, 2 gümüş və 5 bürünc olmaqla, ümumilikdə, 11 medal qazanıb. Ölkəmiz medal sıralamasında 169 ölkə arasında 28-ci yeri tutub.

Paralimpiyaçılarımız qızıl medalları müxtəlif idman növləri üzrə qazanıblar. Ölkəmizin adına qızıl medallardan birini parataekvondoçu İmaməddin Xəlilov qazandırıb. Parataekvondo üzrə Azərbaycan millisinin üzvü olan İmaməddin Xəlilov Paris Olimpiadasına dünya reytinqinin lideri qismində gəlmişdi. Qeyd edək ki, o, çıxış etdiyi son yarışların hamısında ardıcıl qələbələr qazanıb. Son dünya və ikiqat Avropa çempionu titullarını daşıyan idmançımız Parisdə də qələbə əzmi ilə mübarizə aparıb və istəyinə çatıb. K44, 70 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançı indi həm də Olimpiya çempionudur.

Paris-2024 Yay Paralimpiya Oyunlarında Azərbaycanı təmsil edən Səid Nəcəfzadə də Olimpia çempionudur. İdmançı T12 kateqoriyasında uzunluğa tullanma üzrə yarışda çıxış edərək hamıdan yaxşı nəticə göstərib. Qeyd edək ki, Səid üç il əvvəl Tokio-2020-də bürünc medal qazanmışdı. Parisə gəlməzdən qabaq isə dünya çempionu adını qazanıb.

Azərbaycan paraatleti Lamiyə Vəliyeva da "Paris-2024" Yay Paralimpiya Oyunlarında qızıl medal qazanan idmançılarımızdandır. T13 kateqoriyasında çıxış edən idmançı buna 100 metr məsafəni 11,76 saniyəyə qət edərək nail olub. O, həmçinin eyni kateqoriya üzrə 400 metr məsafəyə qaçışda da qüvvəsini sınayıb və finişə ikinci çatmaqla gümüş medal qazanıb.

Paralimpiya idmançımız Orxan Aslanov da Paris-2024-də uğurlu çıxış ilə yadda qalıb. O, T13 kateqoriyasında uzunluğa tullanma yarışında qızıl medal qazanıb. Orxan Aslanov 7.29 metrlik göstərici ilə hamıdan güclü olub. Bu, Paralimpiya Oyunlarında Orxanın 2-ci qızıl medalı olub. 29 yaşlı idmançımız Tokio-2020-də də qızıl medal qazanıb.

Paralimpiaçılarımızın Olimpiadada qazandıqları uğurlar ölkəmizdə böyük coşqu ilə qarşılanıb. Əlamətdar haldır ki, Birinci vitse-prezident Mehriban Əliyeva qazanılan medullar münasibətilə şəxsi sosial şəbəkə hesabında paylaşımlar edərək idmançılarımıza səmimi təbriklərini çatdırıb. "Uzunluğa tullanma yarışında mübarizə aparan Orxan Aslanovu qızıl medal münasibətilə təbrik edirəm! "Paris-2024" Yay Paralimpiya Oyunlarında Azərbaycana medal qazandırmış bütün idmançılara minnətdaram! Paraatletimizə güc, enerji və yeni qələbələr arzulayıram!", - deyə Mehriban Əliyeva Azərbaycan paraatleti Orxan Aslanovun "Paris-2024" Yay Paralimpiya Oyunlarında qızıl medal qazanması ilə əlaqədar sosial şəbəkə hesablarında etdiyi paylaşımda vurğulayıb.

### Vətənə həsr olunan qələbələr

Paralimpiyaçılar həssas qruplardan olan gənclərdirlər. Ancaq Paris Olimpiadasında qazanılan nəticələr göstərdi ki, bu, idmançılarımız üçün fərq yaradan amil qismində çıxış etməyib. Paralimpiyaçılarımız əzmkar mübarizə aparmaqla gözəl nəticələr qazanmağa nail olublar. Parisdə himnimizi səsləndirən, bayrağımızı ucaldan paraidmançılarımız qələbələrini Vətənə həsr etdiklərini bildiriblər. "Özümlə qürur duyuram. Sosial şəbəkələrdə çoxlu dəstək mesajları alırdım. Bilirdim ki, çempion olacağam. Bu nəticə gələcəkdə digər idmançılar üçün də əlavə stimul olacaq. Qələbəmi şəhidlərimizə həsr edirəm", - deyə qızıl medal qazanan İmaməddin Xəlilov bildirib.

Digər idmançılarımız da oxşar fikirlər ifadə ediblər. Bütün bunlar Azərbaycan gənclərinin vətənpərvərliyinin göstəricisidir. Onlar döyüş meydanlarında olduğu kimi, idman yarışlarında da yenilməz iradə, qələbə əzmi nümayiş etdirirlər.

*MÜBARİZ*

# COP 29 yaxınlaşdıqca...

## Qərb qarayaxma kampaniyasını daha da gücləndirir

Yaşadığımız bölgədə yeni siyasi reallıqlar formalaşdıran Azərbaycan regionun həyatında yeni səhifə açıb. Son 100 illik tarixdə bəlkə də ilk dəfədir ki, Cənubi Qafqaz müstəqil siyasi subyekt olaraq qlobal münasibətlər sistemində öz yerini tuta, bu proseslərə əsaslı təsir göstərə və beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsində real aktor kimi iştirak edə bilər. Bunun əsas meyarı isə birmənalı olaraq II Qarabağ müharibəsi, antiterror tədbirləri və onların nəticələridir. Azərbaycan bölgədə separatizmin və işğalın sonunu gətirməklə fərqli maraqların bu kimi destruktiv amillərdən istifadə edərək regiona nüfuzetmə mexanizmlərini darmadağın etdi. Artıq Cənubi Qafqaz siyasi maraqların oyun meydanı və ya iqtisadi mənafelərin qarşıdurma poliqonu deyil, yeni ticari münasibətlərin nüvəsi kimi çıxış edir.

### Azərbaycanın daxili işlərinə müdaxilələr uğursuzdur

Beləliklə, yeni beynəlxalq münasibətlər sisteminə fərqli bir şəkildə yenidən daxil olan Cənubi Qafqaz bir sıra qlobal güclərin buraya fokuslanmış və təzyiqə əsaslanan müdaxilələrini fərqli statusla qarşılayır. Bu isə həmin güclər və ya dövlətlər tərəfindən həzm edilmir - xüsusilə, işğalçı Ermənistanın yaratdığı imkanlardan yararlanaraq özünü bölgədə hakim sayan Fransa və onun kimiləri artıq "oyundankənar vəziyyətdə" olduqlarını anlayırlar. Bunun üçün də həmin dairələr aqressiyalarını artırır, bütün spektrlər üzrə "hücumlarını" daha da intensivləşdirirlər.

Vurğulandığı kimi, bu sırada Avropa İttifaqının adı ilk növbədə çəkilir. Ölkəmizə qarşı apardığı kampaniyaları uğursuzluqlarla müşayiət edən Aİ yenidən bir sıra "addımları" ilə "yadda qalmağa" çalışır. Amma bütün bunlar boşunadır və Azərbaycan tərəfindən layiqincə qarşılığını alır.

Yeri gəlmişkən, bir neçə gün öncə Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə Avropa İttifaqını (Aİ) Azərbaycanın daxili işlərinə uğursuz müdaxilələr həyata keçirməməyə çağırmışdı. XİN rəsmisi



"X" sosial şəbəkəsində yazmışdı ki, Avropa İttifaqının Xarici Fəaliyyət Xidməti rəsmilərini Azərbaycanın daxili işlərinə müdaxilələrinin uğursuz olduğunu anlamağa və bəzi Aİ dövlətlərinin daxili problemlərinə diqqət yetirməyə çağırırıq.

Beləliklə, ortaya maraqlı bir mənzərə çıxır - Avropa İttifaqının mənfi çalarlara əsaslanan uğursuz müdaxilə cəhdləri özünün daxili problemlərinin qabarıq şəkildə hiss edilməsi ilə assosasiya olunur:

- Qurumun Macarıstana münasibətdə qeyri-demokratik mövqe tutması və bu ölkədə keçirilən seçkilərə müdaxilə cəhdlərinin uğursuzluqla

### Ai niyə özünə "diqqət yetirmir"?

müşayiət edilməsi;

- Eyni zamanda, Serbiaya münasibətdə yenə də ikili standartlara "müraciət olunması";
- Daxilində günü-gündən genişlənən islamofobiya ilə mübarizəyə göz yumması;
- Radikal millətçilərin siyasi imtiyazlar qazanması;
- Aİ daxilində korrupsiya və rüşvətin miqyasının artması;
- Nəhayət, özlərinin müəyyənləşdirdiklərini iddia etdikləri "demokratik standartların" elə Aİ tərəfindən tapdanması.

Bu amillər bütövlükdə, Aİ-nin son proseslərdəki tablosunun qısa eskizi də adlana bilər - İşğalçıya haqq qazandırılması, onun silahlandırılması və bu kimi amilləri görməzdən gələn Aİ açıq şəkildə ermənipərəst mövqeyini ortaya qoyur.




### Aİ verdiyi əsassız bəyanatlarla özünü aldadır

Qurum bütövlükdə Cənubi Qafqazdakı fundamental dəyişikləri həzm edə bilməməklə yanaşı, regionda inkişaf edən demokratik proseslərə müdaxilə imkanlarını da itirib. Konkret olaraq illərdir ki, istifadə etdiyi "demokratiya və insan haqqları", "söz azadlığı" və bu kimi "şüarları" işə yaramır. Onun əlaltılığını həyata keçirən bütün dairələr özünü "ifşa etdi" və indiki halda Aİ verdiyi qeyri-demokratik və əsası olmayan bəyanatlarla yalnız özünü aldadır.

Fransanın neoimperialist davranışlarına, Ermənistanı aktiv şəkildə silahlandırmasına, hətta separatizmə açıq dəstəyinə belə reaksiya verməyən Aİ öz kimliyini həm Azərbaycan, həm də dünya ictimaiyyətinə növbəti dəfə göstərir. Əsassız iddialarla Azərbaycanı "ittiham etməyə" çalışan Aİ anlayır ki, artıq onlara inanan yoxdur və bu "hücumların" əsl səbəbi hər kəsə bəllidir...

Aİ-dəki ermənipərəst dairələr anlayırlar ki, Azərbaycan son illərdə özünün dünyaya yeni, fərqli bir obrazda təqdimatını edir - qalib, beynəlxalq proseslərdə təşəbbüskar, qlobal təhdidlərə qarşı mübarizədə lider, yeni iqtisadi-ticari münasibətlərin formalaşmasında açar ölkə kimi tanınan Azərbaycan iki aydan sonra dünyanın ən mühüm tədbirlərindən birinə ev sahibliyi edəcək. Nəzərə alsaq

### COP29 öncəsi hücumlar...

ki, bu tədbir özünün beynəlxalq səviyyəsinə görə tamam fərqli bir status daşıyır, beləliklə, Azərbaycanın əldə etdiyi nüfuz və imic açıq şəkildə ortaya çıxır. Ölkəmiz qlobal ekoloji mühitin müzakirə platforması kimi çıxış edəcək. COP29 həm də siyasi diqqəti Azərbaycanın üzərinə yönələcək - artıq dünya KİV-i Azərbaycan həqiqətlərini, həyata keçirilən uğurlu siyasəti, erməni işğalına son verilməsini, suverenliyin və ərazi bütövlüyünün bərpasına, paralel olaraq bu prosesə mane olmaq istəyən, bunun üçün ciddi cəhdlər göstərən, qeyri-demokratik bəyanatlarla regionda siyasi qarşıdurmalar formalaşdırmağa çalışanların kimliyini daha açıq formada tirajlayacaq. Bu isə dolayısı ilə Aİ və bu kimi, xəbis erməni marağına xidmət edənlərə sərf etmir - həqiqətin çılpaq şəkildə ortaya qoyulması, Aİ-nin onsuz da yerlə -yeksan olmuş imicinin bitməsi deməkdir. Beləliklə də, COP29 yaxınlaşdıqca bütün məsələlərdən bəhanə kimi istifadə edilir və Qərb Azərbaycana qarşı kampaniyasını daha da gücləndirir. Amma hər zaman olduğu kimi, bu dəfə də haqq və ədalət qələbə qazanacaq - Azərbaycanın iradəsinə nə Aİ, nə də biri başqa ermənipərəst qurum təsir göstərə bilməz.

**P.İSMAYILOV**

# Azərbaycan neokolonializmə qarşı fəal mübarizə aparır




Məlumdur ki, bəşəriyyətin kolonializm tarixinin qanlı cinayətlərinin çoxu məhz Fransa tərəfindən törədilib. Fransanın fəal surətdə məşğul olduğu qul ticarəti insanlığın ən utancverici səhifələrindən biridir. Milyonlarla afrikalı bu ölkənin qul siyasətinin qurbanı olub.

Ümumiyyətlə, kolonializm siyasətinin fəsadlarını müxtəlif aspektlərdən dəyərləndirmək mümkündür. Mənfi nəticələr yalnız asılı ölkələrin suverenliyinin məhdudlaşmasında, yeraltı və yerüstü sərvətlərinin talanmasında müşahidə edilmir. Fundamental insan hüquqlarının tapdanması müasir dövr müstəmləkəçiliyinin ən ağır təzahürüdür. Təzad bundan ibarətdir ki, müstəmləkəçi Qərb ölkələri demokratiyanı və insan hüquqlarının qorunmasını özlərinin fundamental prinsipləri kimi bəyan ediblər. Ancaq həmin ölkələr, Afrikada, Yaxın Şərqdə, Latın Amerikasında neokolonializmi davam etdirməklə insan hüquq və azadlıqlarına, ümumiyyətlə, məhəl qoymurlar. Neokolonializm siyasətində Fransa ən pis nümunə ortaya qoyur. Hazırda 13 dənizaşırı ərazini müstəmləkəsi kimi idarə edən, həmçinin dünyanın müxtəlif qitələrində yerləşən keçmiş müstəmləkələrinin daxili işlərinə qarışan Fransa beynəlxalq təşkilatların və müstəqillik uğrunda mübarizə aparan xalqların uzun illərdir tələblərinə baxmayaraq, neokolonializm siyasətini davam etdirir.

Azərbaycan bu məsələdə prinsipial mövqe nümayiş etdirir və Fransanın müxtəlif xalqlara qarşı repressiv siyasətinə etiraz səsini ucaldır. Eyni zamanda, müstəmləkəçiliyə qarşı aparılan mübarizəyə siyasi və mənəvi dəstək verilir. Bakı Təşəbbüs Qrupunun yaradılması da bu məqsədə xidmət edir. Belə ki, Bakı Təşəbbüs Qrupu Qoşulmama Hərəkatının ötən il iyulun 5-6-da Bakıda keçirilmiş nazirlər toplantısı çərçivəsində baş tutan tədbirin nəticəsi olaraq yaradılıb. Bütün dünyada müstəmləkəçiliyə məruz qalan xalqlara, xüsusilə Karib adaları, Cənubi Amerika, Sakit okean və Hind okeanındakı fransız müstəmləkələrinə həsr olunmuş həmin tədbir bütün maraqlı tərəflərə Fransa dövlətinin müstəmləkəçilik siyasətinin müvafiq dövrlərdə fəsadlarına dair fikir mübadiləsi aparmağa imkan verib.

Yarandığı vaxtdan Bakı Təşəbbüs Qrupu Fransanın müstəmləkəçilik siyasətindən əziyyət çəkən xalqların hüquqlarının müdafiəsi üçün 16 beynəlxalq konfrans keçirib. Bu tədbirlər həm Azərbaycanda, həm də müxtəlif ölkələrdə və beynəlxalq təşkilatlarda reallaşdırılıb. Belə tədbirlərdən biri də sentyabrın 3-də Bakıda Fransanın işğalı altındakı Mayot adasına həsr olunmuş beynəlxalq konfransın keçirilməsidir.




"Qəmər Adaları İttifaqının Mayot adasının Fransa tərəfindən qeyri-qanuni işğalı" mövzusundakı tədbir Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə son bir il ərzində reallaşdırılan 16-cı beynəlxalq tədbirdir. Konfransda Fransanın işğalına qarşı mübarizə aparan və Mayot adasının özünün tərkibinə geri qayıtmasına çalışan Qəmər Adaları İttifaqı, o cümlədən Mayot adasının ictimai-siyasi xadimləri, diplomatlar, elmi dairələrin nümayəndələri, qeyri-hökumət təşkilatlarının rəhbərləri, hüquq müdafiəçiləri siyasi partiyaların üzvləri iştirak ediblər. Tədbir iştirakçıları Qəmər adalarının müstəmləkəçilik tarixi, Mayotun Fransa tərəfindən işğalı və bunun nəticəsində adanın vətəndaşlarına vurulmuş ziyan, Fransanın bu bölgədə müstəmləkəçilik siyasətinin geosiyasi və iqtisadi maraqları, habelə Mayot adası ilə bağlı beynəlxalq təşkilatların mövqeyi ətrafında müzakirələr aparıblar.

Qeyd edək ki, Bakı Təşəbbüs Qrupu Bakıda keçirilmiş "Qəmər Adaları İttifaqının Mayot adasının Fransa tərəfindən qeyri-qanuni işğalı" mövzusunda beynəlxalq konfransın nəticələrinə əsaslanaraq Birləşmiş Millətlər Təşkilatının Baş katibinə, Qoşulmama Hərəkatının sədrinə, İslam Əməkdaşlıq Təşkilatının Baş katibinə, Avropa Komissiyasının sədrinə, Ərəb Liqasının Baş katibinə və Afrika İttifaqının sədrinə məktub ünvanlayıb. Məktubda Fransa tərəfindən Qəmər Adaları İttifaqına aid olan Mayot adasının qanunsuz işğalı ilə bağlı dərin narahatlıq ifadə edilib və bunun beynəlxalq hüququn pozuntusu olduğu bildirilib.

Məktubda qeyd olunub ki, Fransa BMT Təhlükəsizlik Şurasının daimi üzvü olmasından sui-istifadə edərək beynəlxalq hüququn bu pozuntusunun həllinə yönəlik təşəbbüslərə mane olur. Həmçinin Fransa BMT Baş Assambleyası, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Ərəb Liqası və Afrika İttifaqı kimi beynəlxalq təşkilatların qəbul etdiyi müvafiq qətnamələri heçə sayır. "Qəmər Adaları İttifaqının Mayot adasının Fransa tərəfindən qeyri-qanuni işğalı" mövzusunda beynəlxalq konfransın əsas nəticələrindən biri olan Yekun Bəyanat Birləşmiş Millətlər Təşkilatının Baş katibinə, Qoşulmama Hərəkatının sədrinə, İslam Əməkdaşlıq Təşkilatının Baş katibinə, Avropa Komissiyasının sədrinə, Ərəb Liqasının Baş katibinə və Afrika İttifaqının sədrinə təqdim olunub. Bundan əlavə, yuxarıda qeyd olunan təşkilatların rəhbərlərinə Bakı Təşəbbüs Qrupu tərəfindən nəşr edilmiş "Qəmər Adaları İttifaqının Mayot adasının Fransa tərəfindən qeyri-qanuni işğalı" adlı broşür da təqdim olunub.

Bakı Təşəbbüs Qrupu, eyni zamanda, məktubunda Mayot adasının işğalı ilə bağlı beynəlxalq konfrans keçirməyə və işğalın dayandırılması, beynəlxalq hüququn qorunması məqsədilə bu qurumların daxilində müvafiq işçi qruplarının yaradılmasını təşviq etməyə çağırıb. Sonda Bakı Təşəbbüs Qrupu beynəlxalq ictimaiyyətlə sıx əməkdaşlığı çərçivəsində bu məsələnin beynəlxalq hüquq əsasında tezliklə həll olunacağına əminliyini ifadə edib.

Göründüyü kimi, ölkəmiz Fransanın müstəmləkəçi siyasətinə qarşı mübarizə aparan xalqların yanındadır və onlara dəstək verir. Qeyd edək ki, Fransa müstəmləkəçiliyinə qarşı yaradılan Bakı Təşəbbüs Qrupu qısa zaman kəsiyində mühüm işləri ilə seçilib. Bu istiqamətdəki tədbirlər bundan sonra da davam etdiriləcək.

**N.BAYRAMLI**

# Sülhə atılan güllə...

## Ermənistanın silaha "əl atması" kimlərin marağındadır?

**Son dövrlərdə sülh prosesinin predmetləri aktiv müzakirə olunmaqdadır. Xüsusilə, Ermənistan Konstitusiyasında dəyişikliklərin edilməsinin, Azərbaycana qarşı haqsızlığın və torpaq iddiasının aradan qaldırılmasının vacibliyinin sülh prosesindəki yeri vurğulanmaqdadır. Paralel olaraq iki ölkənin müvafiq delimitasiya və demarkasiya komissiyaları arasında keçirilən görüşlər, əldə olunan razılıqlar prosesin yaxın zamanda müsbət yöndə həllinin tapılmasına ümidi artırır. Amma təəssüf ki, bəzi hallarda Ermənistanın siyasi rəhbərliyinin sülhlə bağlı "fikirlərinin" manipulyasiya olduğunu görürük. Bir tərəfdən sülh çağırışı edən ölkə digər tərəfdən, silahlı təxribatlar törədir, Azərbaycan Ordusunun mövqelərini atəşə tutur. Bu isə birmənalı qarşılana bilməz. Çünki həm sülhdən danışmaq, həm də silahlı hücumlar təşkil etmək bir ölçüyə sığmır...**

### Mövqelərimiz ard-arda atəşə tutulub

Xatırladaq ki, sentyabrın 4-ü saat 19:35 radələrində Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu istiqamətində yerləşən mövqeləri Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən atıcı silahlardan atəşə tutulub. Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.

Sentyabrın 5-i isə saat 09:55 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Zağalı yaşayış məntəqəsi istiqamətindəki mövqelərindən Ordumuzun Kəlbəcər rayonunun Zivel yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub. Bu dəfəki atəş də bölmələrimiz tərəfindən susdurulub. Ard-arda əl atılan iki silahlı təxribatın təsadüfi olmadığı bir sıra nüanslarla ortadadır.

### Aİ-nin uğursuz kampaniyasının davamı...

İlk növbədə, bu silahlı təxribatların ölkəmizdə baş tutan siyasi hadisədən - parlament seçkilərindən cəmisi bir neçə gün sonra baş verməsi diqqət çəkir. Avropa İttifaqının timsalında ölkəmizə qarşı haqsız kampaniyaların keçirildiyini göz önünə alsaq, bu silahlı təxribatın Aİ-nin "uğursuz kampaniyası" ilə əlaqəli olduğunu söyləyə bilərik. Nəzərə alınmalıdır ki, hələ də Ermənistanda qaranlıq "planlar" həyata keçirən, kəşfiyyat işləri ilə məşğul olan Aİ-nin "Monitorinq missiyası" fəaliyyət göstərir - bu amil isə sözügedən silahlı təxribatların kimlər tərəfindən təhrik edilməsi faktını ortaya qoyur. Beləliklə, siyasi meydanda Azərbaycana məğlub olan Aİ və Fransa bu kimi təxribatlarla həm mövcud sabitliyə xələl yetirir, həm də ara qarışdırmaq üçün fürsət axtarırlar...



### COP29 öncəsi planların tərkib hissəsi...

Digər bir məsələ isə siyasi təhlilçilərin də qeyd etdiyi COP29 öncəsi ölkəmizə qarşı aparılan və planlaşdırılan kampaniyalardır. Bu gün sabitlik adası kimi çıxış edən, mühüm bir regionda sülhü bərqərar etmiş Azərbaycan ən təhlükəsiz məkanlardan biri kimi şöhrət qazanıb. Bu amilin üzərinə kölgə salmaq istəyən bəzi xarici dairələr Ermənistanın əli ilə silahlı təxribatlar törədir, bununla da guya Azərbaycanda sabitliyin olmadığını önə çəkməyə çalışırlar. Təbii ki, bu amilin aldadıcı olması hər kəsə bəllidir - sadəcə olaraq, mühüm bir beynəlxalq tədbir öncəsi belə təxribatlara əl atılması anti-Azərbaycan dairələrin çirkin niyyətinin fərqli sferaları əhatə etdiyini göstərir.

Və nəhayət yenə də sülhün hədəfə alınması... Hər kəs anlayır ki, Cənubi Qafqazda siyasi-hərbi sabitliyin gücləndirilməsi, əməkdaşlığın inkişaf etdirilməsi dayanıqlı sülhün yaranması prosesi ilə birbaşa əlaqədir. Ermənistanın sülh müqaviləsini imzalaması bölgədəki situasiyaya köklü şəkildə təsir göstərəcək. Eyni zamanda, sülh prosesinin məntiqi nəticə ilə yekunlaşması bölgədəki destruktiv maraqların tam şəkildə iflasa uğramasına yol açacaq. Beləliklə, sülh bir mənada regionun yeni inkişaf mərhələsini formalaşdırmaqla yanaşı, kənar təsirlərin də aradan qaldırılmasına şərait yaradacaq. Bu isə elə başda Aİ olmaqla ermənilərdən öz maraqları

### Sülh Ermənistandan istifadə edən kənar qüvvələri zərərsizləşdirəcək

üçün istifadə edən dairələrin planları ilə üst-üstə düşmür.

Təbii ki, bütün bunların fonunda yenə də itirən Ermənistandır - fərqli korporativ maraqlara xidmət edən rəsmi İrəvan daha ağır sosial çətinliklərin, iqtisadi böhranların astanasına sürüklənir. Ondan istifadə edən mərkəzlər üçün isə Ermənistanın mənafeyi heç bir məna kəsb etmir...

**SADİQ**

# 90 dəqiqə tamaşaçısız...

ABŞ-da seçki günü yaxınlaşdıqca mübarizə daha da dramatik hal alır. Keçmiş prezident Donald Tramp ilə hazırkı vitse-prezident Kamala Harrisin “siyasi duel”inin finalına iki ay qalmış ölkənin fərqli ərazilərində sorğular keçirilir, səs faizlərinin “mini exit-poll”u aparılır. Son məlumatlar isə hər iki namizədin şanslarının demək olar ki, eyni olduğunu göstərir. Cüzi fərqlə Tramp tərəfdarları üstünlük qazanıb - respondentlərin 48 faizi Trampı, 47 faizi isə Harrisi dəstəklədiklərini bildiriblər. Nevada, Corciya, Şimali Karolina və Arizona ştatlarında siyasətçilərə dəstək eynidir.

## Tramp-Harris debatı tərəflər üçün neytral meydanda - Filadelfiyada baş tutur

### Tramp: İki nəfərə zəng edəcəm: Putin və Zelenskiyə

Bu arada, siyasi ekspertlər ABŞ-dakı seçkilərin nəticələrinin daxili siyasi proseslərlə yanaşı, xarici siyasi proseslərlə, ən əsası Ukrayna-Rusiya, eləcə də Yaxın və Orta Şərq məsələsindən asılı olduğunu iddia edirlər. Bütün namizədlər özlərinin platformalarında məhz bu iki predmetə xüsusi yer ayırırlar. Məsələn, Tramp prezident seçiləndən sonra onun planının enerji qiymətlərini yarıya qədər və ya daha çox azaltmaq olduğunu önə çəkib. O, Mərkəzi Avropada iki ildən artıqdır davam edən müharibəni bitirəcəyini də irəli sürüb. “Həqiqətən, qələbəm məlum olan gecə mən iki nəfərə zəng edəcəm: Putin və Zelenskiyə... 24 saat ərzində müqavilə bağlayacağıq”, - deyə Donald Tramp əminliklə deyib.

### Harris daxili proseslərə üstünlük verir

Demokratların seçkidəki namizədi Kamala Harris isə sözügedən məsələlərə münasibətdə təmsil etdiyi siyasi partiyanın mövqeyindən kənara çıxmır. Görüşlərində daha çox daxili proseslərə diqqət ayıran Harrisin mövqeyindən anlaşılır ki, onun seçki menecerləri diqqəti daxili auditoriya ilə işləməyə yönəldib. Qərbin aparıcı nəşrləri isə bu addımın doğru olduğunu bildirirlər - onların fikrincə, əvvəlki seçki ənənələrinə diqqət yetirdikdə ABŞ cəmiyyətinin daxili proseslərlə bağlı islahat və inkişaf vəd edən namizədlərə üstünlük verdiyi aşkara çıxır.



### Yekun qaydalar təsdiq edilib...

Qeyd edək ki, navmizədlər arasındakı teledebat anlaşılmazlığı da öz həllini tapıb - namizədlər arasında debatın sentyabrın 10-da “ABC” kanalı tərəfindən Pensilvaniya ştatının Filadelfiya şəhərində keçirilməsi planlaşdırılıb. Yekun qaydalar sentyabrın 5-də təsdiq edilib. Sentyabrın 8-də jurnalistlərdən birinin müvafiq sualını cavablandıran Harris Trampla debat etməyə hazır olduğunu bildirmişdi.

Xatırladaq ki, hələ ötən ay Harrisin seçki kampaniyasının kommunikasiya direktoru Tayler 10 sentyabr üçün debat planının hazır olduğunu demişdi. Həmin vaxt debatın sentyabrın 4-də “Fox News”un moderatorluğu ilə keçirilməsi təklifi də səslənsə də, tərəflər bununla bağlı ümumi razılığa gələ bilməmişdilər.

Bu gün baş tutacaq debatla bağlı isə xüsusi tələblər irəli sürülür - Tramp və Harrisdən mikrofonu söndürməklə rəqibinin çıxışının sonunu gözləmələri tələb olunacaq və cavab müddəti iki dəqiqəlik reqlamentlə məhdudlaşdırılacaq. Görüşdə yalnız moderatorlar əvvəlcədən hazırlanmış qeydlərdən istifadə edərək sual verə biləcəklər.

### Açılış bəyanatları olmayacaq

Debatöncəsi yayılan son xəbərlərdə bildirilir ki, hər iki qərargahda öz namizədinin qələbəsini gözləmək əvəzinə, həm də məğlub olacağı təqdirdə riskləri dəyərləndirməklə məşğuldurlar. Demokratlar milli debatlarda az təcrübəsi olan Harrisin həddən artıq təmkinli olması mübarizədə məğlubiyyətə yol açacaq. Respublikaçılar isə Donald Trampın onun üçün hazırlanmış plana əməl etməyəcəyindən, emosiyalarını saxlaya bilməyəcəyindən narahatlıq keçirirlər. Debatın məkanı da maraqlıdır - debat namizədlər arasında demək olar ki, əsas mübarizənin getdiyi Pensilvaniya ştatının ən böyük şəhəri olan Filadelfiyada baş tutacaq. Bu ştatda isə vəziyyət eynidir - sorğularda hər iki namizəd bərabər səs qazanıblar.

Sentyabrın 10-da yerli vaxtla axşam saat 9-da ABC “News” telekanalında keçiriləcək debat 90 dəqiqə davam edəcək. Debatda açılış bəyanatları olmayacaq və tamaşaçısız keçiriləcək. Hər iki namizədə debat zamanı öz komandalarının üzvləri ilə ünsiyyət qurmağa, o cümlədən reklam fasilələri zamanı studiyadan ayrılmağa icazə verilməyəcək. Namizədlər qələm, bloknot və su ilə təmin olunacaqlar. Əksər analitiklərin fikrincə, bu debat seçkinin nəticələrinə əsaslı təsir göstərəcək.

### ABŞ siyasətçilərinin qənaətincə...

Qarşıdakı debatla bağlı ABŞ siyasətçilərinin də fikirləri birmənalı deyil. Öz fikirlərini “Politico” ilə bölüşən Nümayəndələr Palatasının keçmiş spikeri Nyut Qinqriç qeyd edib ki, Kamala Harris aqressiyası ilə rəqibini əsəbləşdirə bilər. O bildirib ki, Donald Tramp təmkin nümayiş etdirməli və emosiyalarına boyun əyməməlidir.

Respublikaçılar Partiyasının siyasi paratexnoloqlarından sayılan, Donald Trampın praymerizlərdəki son rəqibi Vivek Ramasvaminin kampaniyasında baş məsləhətçi kimi çalışmış Trişa Maklaflin isə deyib ki, mən onun (Trampın) intizamlı olması üçün dua edirəm.

Trampın sadiq tərəfdarı olan senator Lindsi Qrem isə eks-prezidenti seçdiyi taktikaya görə qınayıb - onun fikrincə, namizədlərin bir-birinə qarşı fərdi “siyasi atışması” diqqəti Harrisin birbaşa bağlı olduğu ABŞ-ın hazırkı administrasiyasının real uğursuzluqlarından yayındırır. O, əmindir ki, Ağ Evə gedən yol güclü siyasi müzakirələrdən keçir.

# Simonyan istisna etməsə də...

## Ermənistanın hələ KTMT-ni tərk etməyə cəsarəti çatmır

**Təxminən iki ildir ki, Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) fəaliyyətini dayandırıb. Hələ ötən ilin yayında Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının baş katibinin müavini kvotasından imtina edib. Rəsmi İrəvan, həmçinin KTMT-nin ölkədə keçirilməsi nəzərdə tutulan hərbi təlimlərini də təxirə salmışdı. Hansı ki, Rusiya Müdafiə Nazirliyi 2023-cü ilin əvvəlində KTMT-nin “Sarsılmaz qardaşlıq - 2023” sülhməramlı təlimlərinin Ermənistanda keçiriləcəyini bəyan etmişdi. Amma baş nazir Nikol Paşinyan İrəvanın bu təlimlərin keçirilməsini məqsədəuyğun hesab etmədiyini bildirmişdi. N.Paşinyan hətta nümayişkəranə şəkildə ötən il noyabrın 23-də Minsk şəhərində keçirilən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının sammitinə də qatılmadı. Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan isə bu il iyunun 21-də KTMT Xarici İşlər Nazirləri Şurasının Almatıda keçirilən iclasında iştirak etməyib.**

### İrəvan KTMT-dən niyə “inciyib”?

Rəsmi İrəvanın iddiası ondan ibarətdir ki, KTMT Ermənistanın təhlükəsizliyinin təminatında rol oynamır. Ona görə də, təhlükəsizliklə bağlı yeni tərəfdaş axtarışındadırlar. Rəsmi İrəvanın “inciliyi” 2022-ci ilin sentyabrında şərti sərhəddə baş verən hərbi toqquşma zamanı KTMT-nin onu müdafiə etməməsi ilə bağlıdır. Halbuki, şərti sərhəddə Azərbaycana qarşı hərbi təxribat törədən məhz erməni hərbi birləşmələri idi. Belə olan halda, KTMT nə üçün təxribatçını müdafiə etməlidir? Görünən odur ki, Paşinyan hakimiyyəti bu hadisədən təşkilatla körpüləri yandırmaq üçün bir bəhanə kimi istifadə edib.

### Rusiya rəsmilərinin xatırlatması...

Bundan əlavə, Ermənistan KTMT-yə üzvlük haqqı ödəməyi də dayandırıb. Paşinyan həm, iyunun 12-də parlamentin iclasında, həm də avqustun 28-də keçirdiyi mətbuat konfransında Ermənistanın təşkilatı tərk edəcəyi barədə mesaj verib. Lakin bunun nə vaxt reallaşacağını açıqlamayıb. Sentyabrın 9-da isə Ermənistan parlamentinin spikeri Alen Simonyan məsələni gündəmə gətirib. O, jurnalistlərə müsahibəsində “Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından çıxa biləcəyini istisna etmirəm”deyib. Paşinyan kimi Simonyan da dəqiq vaxt açıqlamayıb.

Bununla yanaşı o, ölkəsinin BRICS ilə əməkdaşlığını vacib element hesab etdiyini vurğulayıb. Simonyan bildirib ki, Ermənistanın regiondan uzaqlaşması çox önəmli məsələdir.



Ümumiyyətlə, KTMT ilə bağlı addımları Ermənistanın regionda Rusiyanın maraqlarına zidd olan addımlar atmaqda davam etdiyini göstərir. İrəvanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına qarşı münasibəti Moskva tərəfindən qəbulolunmaz hesab edilir. Ona görə də, Ermənistan hökuməti bir tərəfdən Qərbdən dəstək istəyir, digər tərəfdən Rusiya ilə ipləri qoparmaqdan ehtiyatlanır.



Bugünlərdə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova da Ermənistanın KTMT-nın tam hüquqlu üzvü olduğunu xatırladıb. Bəs rəsmi İrəvan KTMT ilə bağlı atdığı addımlarda kimə güvənir? Proseslər göstərir ki, bu məsələdə də Fransa əsas rol oynayır.

### İrəvan Qərbdən umur...

Məlumdur ki, son dövrlər Ermənistanın rəsmi şəxslərinin Fransaya səfərlərinin sayı artıb. Bu yaxınlarda Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan, müdafiə naziri Suren Papikyan da Parisə səfər edib. Məhz bu səfərlər Ermənistanın Fransa tərəfindən silahlandırılması fonunda baş verir. Fransa təkbaşına deyil, kollektiv Qərbdən Ermənistanın KTMT-dən çıxması üçün dəstək almağa çalışır. İrəvanın da istəyi odur ki, KTMT-ni tərk edəcəyi halda Avropa İttifaqına və NATO-ya üzv olsun. Bunun üçün Aİ ölkələrinin, Qərbin dəstəyi lazımdır. İrəvanı buna həvəsləndirən isə Parisdir. Əgər bu dəstək olmayacaqsa, Ermənistan hakimiyyəti KTMT və Rusiyaya qarşı ritorikasını yumşalda bilər.

Rəsmi Paris Ermənistanın KTMT-ni tezliklə tərk etməsinin tərəfdarıdır. Çünki bu ölkə Ermənistanı Cənubi Qafqazda Rusiyaya qarşı “mərkəzə” çevirməyə çalışır. Yəni, Paris Paşinyan hakimiyyəti sayəsində Cənubi Qafqaza daxil olaraq Rusiyanı neytrallaşdırmaq istəyir. Ssenari də belədir ki, erməni hakimiyyət orqanları KTMT-də böhran yaradacaq, nəticədə Rusiya hərbi bazasını ölkədən çıxaracaq, hərbi iştirakını itirdikdən sonra KTMT İrəvanı öz sıralarından xaric edəcək. Bu ssenarinin həyata keçib-keçməməsini isə zaman göstərəcək. Amma fakt faktlığında qalır ki, Ermənistan regionda marağı olan böyük güclərin əlində alətə çevrilib. Hansısa qüvvənin əlində alət olmaq isə İrəvana yaxşı heç nə vəd etmir.

*NARDAR*

# Şillə, yumurta, indi də fitəbasma...

## Makronun siyasi taleyi sual altındadır

**Fransada daxili siyasi gərginlik artmaqda davam edir. Prezident Emmanuel Makronun yarıtmaz siyasəti ölkəni dərin böhrana sürükləyib. Xüsusilə, son parlament seçkiləri siyasi böhranı daha da stimullaşdırır. Çünki seçkilərdən sonra parlamentdə təmsilçilik qazanan üç əsas blok bir-birinə güzəştə getmək niyyətində deyil. Milli Assambleyanı buraxaraq, ölkədə qeyri-sabitliyi yaradan elə Makron özüdür.**

### Makron fitə basıldı...

Bu səbəblərdəndir ki, dövlət başçısının əhali arasında heç bir nüfuzu qalmayıb. Xatırladaq ki, vaxtilə vətəndaşların şilləsinə tuş gələn Fransa prezidenti daha sonra yumurta atəşinə də tutulmuşdu. Bu dəfə isə o, əhali tərəfindən fitə basılıb. Hadisə Parisdə keçirilən Yay Paralimpiya Oyunlarının bağlanış mərasimində baş verib. Belə ki, Emmanuel Makronu mərasimdə fitə basıblar. Fransa KİV-lərinin məlumatına görə, mərasim zamanı E.Makron Beynəlxalq Paralimpiya Komitəsinin (IPC) prezidenti Endryu Parsonsla birlikdə tribunaya qalxıb. Bu zaman “Stad de Frans”ın tribunasından qulaqbatırıcı fit səsləri eşidilib. Qeyd edək ki, sentyabrın 8-də Fransanın paytaxtında “Stade de Frans” stadionunda Yay Paralimpiya Oyunlarının bağlanış mərasimi keçirilib.

### Etirazlar güclənir...

Son günlər Fransanı bürüyən etiraz aksiyası da bunun göstəricisidir. Fransada Solçu Yeni Xalq Cəbhəsi (NFP) ittifaqının ümumi seçkilərdə son qələbəsinə rəğmən prezident Emmanuel Makronun sağçı siyasətçi Mişel Barnyeni baş nazir təyin etmək qərarına etiraz edən minlərlə vətəndaş sentyabrın 8-də küçələrə axışıb. Etiraz aksiyaları öz namizədinin hökumətə rəhbərlik edəcəyinə ümid edən NFP tərəfindən təşkil olunub. Fransa Daxili İşlər Nazirliyinin məlumatına görə, Makronun əleyhinə nümayişlərdə paytaxt Parisdə 30 minə yaxın, bütün ölkə boyu isə 110 mindən çox insan iştirak edib. Renn, Nant, Nitsa, Marsel və Strasburq kimi böyük şəhərlər də daxil olmaqla, 150-dən artıq şəhər və qəsəbədə etiraz aksiyaları keçirilib.

Ölkənin ən böyük solçu partiyası olan “Əyilməz Fransa”nın (“La France Insoumise France”) parlament lideri Matilda Panot sosial mediada faktiki fəallığın daha çox olduğunu iddia edərək, təkcə Parisdə 160 min, bütün ölkə üzrə isə 300 min etirazçı olduğunu bildirib. Etirazçılar Makronu NFP-nin namizədi Lyusi Kastetin əvəzinə Barnyeni baş nazir təyin etməklə seçkilərin nəticələrinə məhəl qoymamaqda ittiham ediblər.




### Fransa prezidentini impiçment gözləyir

Ümumiyyətlə, son zamanlar Makronun yarıtmaz siyasəti Fransada daxili böhranı dərinləşdirib. Xatırladaq ki, sentyabrın 7-də Parisin Bastiliya meydanına toplaşan minlərlə etirazçı Fransa prezidenti Emmanuel Makronun siyasəti ilə razılaşmadığını bildirib və onun istefasını tələb ediblər. Bununla yanaşı, minlərlə fransalı Mişel Barnyenin baş nazir təyin olunmasına etiraz edib. Xatırladaq ki, Fransanın solçu “Əyilməz Fransa” partiyası prezident Emmanuel Makronun hakimiyyətdən uzaqlaşdırılması prosedurunu başladıb. Bu addım ölkə konstitusiyasının 68-ci maddəsinə uyğun olaraq atılıb. Həmin maddə prezidentin səlahiyyətlərini pozduğu təqdirdə onun vəzifədən kənarlaşdırılması imkanını nəzərdə tutur.

Baxmayaraq ki, parlamentdə 72 mandata malik “Əyilməz Fransa” müstəqil şəkildə impiçment təklifi irəli sürə bilər (bunun üçün 57-dən çox deputat tələb olunur), təşəbbüsə baxılması barədə qərarı Milli Assambleyanın (parlamentin aşağı palatası) bürosu qəbul edir. Sonra qətnamənin mətni qanunvericilik komissiyası tərəfindən təsdiq olunmalı, bundan sonra iki həftə ərzində Assambleyanın üçdə ikisi ona səs verməlidir. Son iki mərhələ solların çoxluğa malik olmadığı parlamentin yuxarı palatasında - Senatda da keçilməlidir. Əgər mətn Senat tərəfindən təsdiqlənərsə, hər iki palata birgə iclasa toplaşır. Qətnaməni hər iki palatanın 925 deputatından 617-si dəstəkləməlidir. Jan-Lük Melenşonun solçu “Əyilməz Fransa” partiyası baş nazir postuna namizədliyi Makron tərəfindən rədd edilmiş Lüsi Kastesin başçılıq etməyəcəyi istənilən hökumətə etimadsızlıq votumu irəli sürəcəyini bildirmişdi.

### Marin Le Pen: Fransanı gələn il yeni növbədənkənar parlament seçkiləri gözləyir

Davam edən nümayişlər Makronun idarəçiliyi ilə bağlı artan ictimai narazılığı əks etdirir. Sağçı “Milli birlik” partiyasının Fransa Milli Assambleyasındakı fraksiyasının lideri Marin Le Pen İtaliyanın “Corriere della Sera” qəzetinə müsahibəsində bildirib ki, Fransanı gələn il yeni növbədənkənar parlament seçkiləri gözləyir: “Aydındır ki, vəziyyət belə davam edə bilməz. Bu, Makrondan başqa hamıya aydındır. Görünür ki, bir il sonra bizi qanunverici orqana yeni növbədənkənar seçkilər gözləyir. Əvvəl-axır Fransaya mütləq çoxluq lazımdır və biz buna yalnız yeni proporsional seçki qanununun köməyi ilə nail ola bilərik”. Onun sözlərinə görə, sağçı “Milli birlik” partiyasının fraksiyası yeni baş nazir Mişel Barnyeyə etimadsızlıq votumu irəli sürməyə tələsməyəcək. Belə ki, ilk ictimai bəyanatları onun “bütün siyasi qüvvələrlə kompromis tapmaq istəməsi” təəssüratını yaradır. “Görək, seçicilərin, məsələn, Avropa ilə bağlı istəkləri də nəzərə alınacaqmı? Barnye mühüm rol oynadığı Avropa quruculuğuna sadiq olmasına baxmayaraq, seçkilərin nəticələrini unutmamalıdır. Çünki fransızların əksəriyyəti indiki Avropa nizamına qarşıdır”,-deyə siyasətçi qeyd edib.

Beləliklə, proseslər deməyə əsas verir ki, Makronun siyasi taleyi yaxşı görünmür. Onun kütləvi etirazlar fonunda tezliklə istefa verməsi istisna deyil.

*N.BAYRAMLI*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Beynəlxalq əməkdaşlıq fonunda yüksələn Azərbaycan

## Ölkəmiz etibarlı tərəfdaşdır...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır**

Ölkəmizin yürütdüyü siyasətin əsas məqsədlərindən biri dünya birliyinə inteqrasiya, beynəlxalq təşkilatlarla münasibətlərin daha da genişləndirilməsindən ibarətdir. Azərbaycan bu siyasəti 1990-cı illərin əvvəllərindən bəri uğurla davam etdirir. Möhkəm təməl üzərində yaradılan güclü iqtisadi potensial, toplanmış maliyyə resursları, cəmiyyət həyatının bütün sahələrinin dinamik tərəqqisi, enerji, ərzaq təhlükəsizliyi kimi məsələlərin uğurla həlli Azərbaycana tam müstəqil, milli maraqlara hesablanan xarici siyasət yürütməyə imkan verib.

Prezident İlham Əliyevin rəhbərliyi altında mükəmməl və praqmatik xarici siyasət həyata keçirən Azərbaycan dünya miqyasında çox etibarlı tərəfdaş kimi tanınır. Bu, artıq heç kimin inkar edə bilməyəcəyi tarixi faktdır. Ölkəmiz dünya birliyinin bütün sahələrində, xüsusilə də, enerji sahəsində aparıcı tərəfdaşa çevrilib. Sözsüz ki, bu sadaladığımız faktların arxasında ölkə rəhbərliyinin gərgin əməyi, əzmkar və müstəqil xarici siyasət kursu dayanır.

Mövzu barədə “Yeni Azərbaycan”a açıqlama verən politoloq Turan Rzayev bildirib ki, indi Azərbaycanın iştirakı olmadan, nəinki regionda, hətta dünya miqyasında heç bir strateji layihənin reallaşması mümkün deyil: “Çünki hazırda Azərbaycan dünya siyasətinin və iqtisadiyyatının əsas faktorlarından birinə çevrilib. Sözsüz ki, bu sadaladığımız uğurlar, dünya birliyi ilə inteqrasiya istiqamətində görülən düzgün işlərin nəticəsində mümkün olmuşdur. Bütün beynəlxalq təşkilatlarla və dünyanın aparıcı dövlətləri ilə əməkdaşlığı inkişaf etdirməkdə maraqlı olan ölkəmiz, bunun üçün konkret addımlar atır”.

T.Rzayevin sözlərinə görə, Azərbaycan Respublikasının xarici siyasətinin prioritet istiqaməti ikitərəfli münasibətlərin inkişaf etdirilməsi və davamlı olmasıdır. İkitərəfli münasibətlərdə isə qonşu dövlətlərlə qurulan əlaqələr xüsusi məna və əhəmiyyət kəsb edir. Sözsüz ki, ikitərəfli münasibətlər yüksək inkişaf etdiyi halda, üçtərəfli, dördtərəfli, beştərəfli və bütövlükdə çoxtərəfli münasibətlərin də inkişafına ciddi təkan vermiş olur. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yürütdüyü uğurlu siyasətin nəticəsində xarici dövlətlərlə möhkəm ticari-iqtisadi və siyasi əlaqələr qurulur. Öncə anlamaq lazımdır ki, xarici siyasət nədir? Xarici siyasət ölkənin milli maraqlarının beynəlxalq aləmdə təbliği və müdafiə edilməsidir. Əminliklə deyə bilərəm ki, Azərbaycan xarici siyasət, milli maraqlarının beynəlxalq arenada ən yüksək səviyyədə müdafiə edilməsi məsələlərində uğurlu addımlarla irəliləyən dövlətlərdən biridir. Həmçinin bu istiqamətdə dünya birliyi ölkələri ilə sülh və əməkdaşlıq korpusuna sadiqdir. Bu o deməkdir ki, Azərbaycan dünyanın ən qabaqcıl ölkələri ilə iqtisadi və siyasi əməkdaşlıq münasibəti qurmağı bacarıb. Yeganə münasibətlərin korlandığı ölkə Ermənistan idi. Lakin hər kəsə aydındır ki, buna səbəb Ermənistan dövlətinin təcavüzkar siyasəti olub”.

Politoloq qeyd edib ki, ölkə başçısı milli maraqlarımıza söykənən müstəqil, ağıllı və düşünülmüş siyasət yürütməklə Azərbaycanı dünyanın ən nüfuzlu ölkələrindən birinə çevirib: “Təsadüfi deyil ki, Prezident İlham Əliyev də dünyada ən çox etimad göstərilən liderlərdəndir. Bildiyiniz kimi, noyabr ayında ölkəmiz mühüm tədbirə ev sahibliyi edəcək. COP29-un ölkəmizdə keçirilməsi Azərbaycan diplomatiyasının, daxili və xarici siyasətinin uğuru, Prezidentin növbəti qələbəsidir. Azərbaycanın COP29-a ev sahibliyi etməsi malik olduğumuz potensialı bütün dünyaya göstərmək baxımından da önəmlidir. Şübhə yoxdur ki, siyasi nöqteyi-nəzərdən konfransın ölkəmizdə keçirilməsi beynəlxalq münasibətlər sistemində məhz Azərbaycanın rolunun daha da inkişafına və onun yerinin güclənməsinə gətirib çıxaracaq. Bu cür yüksək səviyyəli tədbirlər həm də imkan verir ki, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası ilə bağlı yaratdığı reallıq təhrif edilmədən bir daha dünya ictimaiyyətinə çatdırılsın və geosiyasi maraqlarından asılı olmayaraq, hər kəs görə bilsin ki, Azərbaycanın bərpa etdiyi tarixi ədalətin təməlində beynəlxalq hüququn aliliyinə inam dayanır. Azərbaycan mühüm qlobal konfransa ev sahibliyi etməklə beynəlxalq nüfuzunu və ekoloji gündəliyə sadiqliyini nümayiş etdirir. Bu tədbirin keçirilməsi nəticəsində ölkəmizin dünya səhnəsində fəal və nüfuzlu oyunçu kimi rolunu gücləndirəcəyi şübhəsizdir. Eynilə beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsində də COP29-un əhəmiyyəti danılmazdır. Azərbaycan tərəfi bu tədbirin uğurla keçirilməsi üçün artıq beynəlxaq təşkilatlarla, ümumiyyətlə, bütün BMT strukturları ilə yaxından əməkdaşlıq edir”.

*Yeganə BAYRAMOVA*

# Orqanizmimizin gizli dostu- duz lampaları



Təbiət qoynunda olarkən, xüsusən dağlıq və dağətəyi zonalarda, meşədə, dənizdə, eləcə də yağışdan sonrakı təmiz hava insana xoş əhval-ruhiyyə, orqanizmə rahatlıq bəxş edir. Bunun səbəbini qısaca oksigen bolluğu ilə əlaqələndirsək də, əslində, havadakı neqativ ionların ona təzəlik, canlılıq və təravət verməsidir. “Hava vitaminləri” də adlanan neqativ ionlar sayəsində havada olan zərərli bakteriyalar azalır və insan daha rahat, ciyər dolusu nəfəs alır.

Təəssüf ki, bunu məişətdə əldə etmək olmur. Çünki gündəlik həyatımızda istifadə etdiyimiz elektrik alətlərinin yaydığı ion seli orqanizmin təbii elektrik yükündən çoxdur. Komputer, telefon, televizor və bu kimi cihazlar havaya müsbət ionlar yayır ki, bunun da nəticəsində bu qədər elektrik yükü orqanizmdəki bəzi hüceyrələrin zədələnməsinə, bəzilərinin aqressivləşməsinə gətirib çıxarır. Komputer qarşısında, ya da telefonun başında çox zaman keçirərkən yaranan əsəb gərginliyi, yuxusuzluq, halsızlıq, baş ağrısı da bununla izah olunur.

Mütəxəssislər bu kimi hallardan çıxış yolu olaraq duz lampalarından istifadəni məsləhət görürlər. Duz lampaları ətraf mühitdə olan müsbət ionları neytrallaşdırır, onların orqanizmə göstərdiyi mənfi təsirləri aradan qaldırır.

Duz lampaları qaya duzunun unikal təbii formasına və kristal quruluşuna nail olmaq üçün diqqətlə oyulur, içinə qoyulan lampanın yandırılması ilə isinən duz mənfi ionlar yayır. Kristal Qaya Duzu Lampaları tərəfindən yayılan mənfi ionların ətraf mühitin hava keyfiyyətini artırdığı və nəfəs almağı rahatlaşdırdığı müəyyən edilib. Soyuduqda da faydalı təsir göstərən lampalar, yandırıldıqda çıxardıqları az miqdarda istiliklə böyük miqdarda ionları udur. Bazarda olan bir çox ionlaşdırıcı maşınlarla müqayisədə, kristal duz lampaları havanın keyfiyyətini yaxşılaşdırmaq üçün təbii, gözəl və daha az xərc tələb edən, texniki xidmət tələb olunmayan alternativdir. Kristal qaya duzu emal edilib formalaşdırılaraq ionlaşma effekti baxımından heç bir azalma və ya dəyişməyə məruz qalmır. Duz Lampasından yayılan işıq bütün bədən funksiyalarına müsbət təsir göstərir. Xüsusilə, qan dövranı, immun və həzm sistemi, hərəkət, qocalıq və ruh sağlamlığına müsbət təsirləri olduğu müəyyən edilmişdir. Həmçinin stresli vəziyyətlərdə duz lampasının yaydığı mənfi ionlardan faydalana bilərsiniz.

Qaya duzu tərkibindəki minerallarla insan orqanizminin bir çox ehtiyacını qarşılayacaq xüsusiyyətlərə malikdir. Göl və dəniz duzlarında görünə bilən təhlükəli maddələr qaya duzunda yoxdur.

Məsələn, komputerin yanına qoyulan duz lampası baş ağrıları, stress yuxusuzluq kimi problemləri aradan qaldırmaq üçün ideal vasitədir. Həmçinin, o, əhval-ruhiyyənin yüksəlməsinə də müsbət təsir göstərir. Eləcə də duz lampalarını yataq otağında gecə lampasının yerinə də istifadə etmək olar.

Qəbul etdiyimiz dərmanlardan fərqli olaraq qaraciyər və böyrəklərə mənfi təsir göstərmir. Ümumiyyətlə, heç bir mənfi təsiri yoxdur və buna görə də uşaq bağçalarında da istifadə edilə bilər. Mütəxəssislər otağın sahəsini nəzərə almaqla duz lampasını seçməyi məsləhət görürlər, çəkisi və ölçüsü böyük olan lampalar daha da effektivdir.

*Şahanə MÜŞFİQ*

# “Bakcell” “Vodafone Group”la əməkdaşlıq edəcək




Ölkənin ən böyük özəl mobil operatoru “Bakcell” dünyanın aparıcı telekommunikasiya şirkəti “Vodafone Group”dan strateji tərəfdaşlıq dəstəyi alacaq.

Bu il “Vodafone” “Azerconnect Group” ilə tərəfdaşlıq müqaviləsi imzalayıb. Müqaviləyə əsasən “Bakcell”, qrupa bağlı şirkət olaraq, xidmət təkliflərini artırmaq məqsədilə süni intellekt əsaslı həllər və qabaqcıl məhsullar da daxil olmaqla, “Vodafone” şirkətinin təcrübəsindən istifadə edəcək.

“Vodafone” 15 ölkədə 330 milyondan çox müştəriyə mobil və sabit şəbəkə xidmətləri təqdim edir, daha 45 ölkədə isə mobil şəbəkələrlə əməkdaşlıq edirik. Şirkət dünyanın ən böyük IoT platformalarından birinə malikdir. Afrika qitəsində “Vodafone” şirkətinin maliyyə texnologiyaları müəssisələri hazırda 7 ölkədə 79 milyondan çox müştəriyə xidmət göstərir. Bu da digər provayderin əməliyyatlarından daha çoxdur.

“Bu əməkdaşlıq “Bakcell”in telekommunikasiya bazarında mövqelərini daha da gücləndirəcək və müştərilərimizə ən son innovativ həll yolları təqdim etməyimizə imkan verəcək. “Vodafone”la tərəfdaşlıq, həmçinin ölkədə rəqəmsal transformasiyanı sürətləndirəcək və yeni texnologiyaların tətbiqinə əhəmiyyətli töhfə verəcək”, - deyə “Bakcell”in baş icraçı direktoru Klaus Müller bildirib.

“Vodafone”un Tərəfdaş Bazarları üzrə baş icraçı direktoru Petr Dvorjak isə öz növbəsində əlavə edib: “Biz telekommunikasiya şəbəkəsinin təkmilləşdirilməsi, əməliyyatların səmərəliliyi və müştəri xidmətləri sahəsində ən yaxşı təcrübələri bölüşmək məqsədilə dünyada bir sıra telekommunikasiya operatorları ilə əməkdaşlıq edirik. Biz qarşıdakı illər ərzində “Bakcell”lə birgə işləməyi səbirsizliklə gözləyirik. Əminik ki, bu əməkdaşlıq “Bakcell”in fərdi və korporativ müştərilərinə böyük fayda gətirəcək”.

**“Bakcell” haqqında**

“Bakcell” Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda “Bakcell” üç milyondan çox müştərini yüksək keyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Şirkət süni intellektə əsaslanan innovasiyalar və həllər vasitəsilə Azərbaycanın davamlı inkişafına töhfə verməyə çalışır və Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biridir.

“Bakcell” müxtəlif ölkələrdə enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən “NEQSOL Holding” beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

## İdman

# İdmançılarımız V Dünya Köçəri Oyunlarının fəxri kürsüsündə...





Azərbaycanın iki idmançısı Qazaxıstanın Astana şəhərində keçirilən V Dünya Köçəri Oyunlarında bürünc medal qazanıb.

AZƏRTAC xəbər verir ki, qazaq güləşi yarışında Elşən Dünyamalıyev (55 kiloqram) və Ülviyyə Bayramova (52 kiloqram) üçüncü yer uğrunda qarşılaşmada müvafiq olaraq, monqolustanlı Qantuq Bayantur və moldovalı Mariya Leorda ilə üz-üzə gəliblər.

Rəqiblərinə qalib gələn həmyerlilərimiz fəxri kürsünün üçüncü pilləsinə qalxıblar.




Azərbaycanın daha bir idmançısı Qazaxıstanın Astana şəhərində keçirilən V Dünya Köçəri Oyunlarında fəxri kürsüyə qalxıb.

Qazaq güləşi yarışında Eyvaz Baxşıyev (60 kiloqram) həlledici qarşılaşmada qazaxıstanlı Meirzhan Bereketov ilə üz-üzə gəlib.

Rəqibinə uduzan təmsilçimiz gümüş medal qazanıb.

Qeyd edək ki, sentyabrın 13-dək davam edəcək yarışlarda Azərbaycan 8 növ üzrə 54 idmançı ilə təmsil olunur.

# Premyer Liqa: Təxirə salınmış oyunların vaxtı açıqlanıb



Azərbaycan Premyer Liqasının III turundan təxirə salınmış “Zirə”-”Araz-Naxçıvan” və “Şamaxı” - “Qarabağ” oyunlarının keçiriləcəyi tarix müəyyənləşib.

Bu barədə AZƏRTAC-a Peşəkar Futbol Liqasından məlumat verilib.

“Zirə” - “Araz-Naxçıvan” matçı noyabrın 6-da, “Şamaxı” - “Qarabağ” qarşılaşması isə dekabrın 19-da baş tutacaq. Oyunların məkanı və başlama saatı ilə bağlı əlavə məlumatlar veriləcək.

# “Nar”ın dəstəyi ilə “Breyn Rinq: BİLİK KUBOKU” uğrunda mübarizə başladı



Ölkənin ən sərfəli mobil operatoru mövqeyini qorumaqla yanaşı, sosial layihələrə də xüsusi önəmlə yanaşan “Nar”ın əsas dəstəyi ilə Azərbaycanın ən güclü beyinləri növbəti dəfə “Breyn Rinq” intellektual yarışmasında biliklərini sınamağa başladılar.

24-cü mövsümdə 12 şəhər və 7 universiteti təmsil edən 21 komanda “BİLİK KUBOKU” uğrunda mübarizəyə başlayaraq qarşıdakı 4 ay boyunca bilik və zəka bacarıqlarını nümayiş etdirəcək. İştirakçılar hər bazar günü saat 19:15-də İctimai Televiziyada yayımlanacaq yarışmada öz şəhər və universitetlərini qürurla təmsil edəcəklər.

“Nar” üçün elm və təhsilə dəstək vermək strateji Korporativ Sosial Məsuliyyət (KSM) istiqamətinin vacib hissəsidir. Operator gənclərin bilik və intellektual potensialını inkişaf etdirmələrinə imkan verən bu cür layihələrə dəstək olmaqla, həm fərdi inkişafı, həm də Azərbaycanın bilik və elm sahəsində irəliləməsini təşviq edir. “Nar”ın həyata keçirdiyi bütün layihələr haqqında ətraflı məlumatı nar.az/layihələr səhifəsindən əldə etmək olar.

“Nar” hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. “Nar” son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4942
Sifariş: 2088
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli